# DÜŞÜNƏN İNSAN

№ 34 - Sentyabr 2014 - 2 AZN

## ELM YARADICININ VARLIĞINI QƏBUL EDİR



- Yengəclər özlərinə uyğun evi ən qısa zamanda necə tapırlar?
- Din əxlaqının cəmiyyətə qazandırdıqları
- Orqanizmimiz dostlarını necə tanıyır?
- Dünyəvi zövqlərin bitdiyi an: ölüm
- İslam dünyasında axan qanın səbəbi: ixtilaf
- Hörümçək torunda Allah'ın incə sənəti
- Qurandakı cihad bu deyil
- Molekulların hiss edilməyən hərəkətindəki incə təfərrüat

# DÜŞÜNƏN İNSAN


| | |
|---|---|
| Elmi-texnoloji xəbərlər | 6 |
| Yengəclər özlərinə uyğun evi ən qısa zamanda necə tapırlar? | 8 |
| Qurandakı cihad bu deyil | 12 |
| Eritrositlərin hasil edilməsinə nəzarət edən hormon: eritropoetin | 14 |
| Din əxlaqının cəmiyyətə qazandırdıqları | 18 |
| Fosillər təkamülü təkzib edir | 24 |
| Elm yaradıcının varlığını qəbul edir | 30 |
| Orqanizmimiz dostlarını necə tanıyır? | 34 |
| Dünyəvi zövqlərin bitdiyi an: ölüm | 38 |
| İslam dünyasında axan qanın səbəbi: ixtilaf | 44 |
| Hörümçək torunda Allah'ın incə sənəti | 46 |
| Axirət günündə sorğu-sual olunmazdan əvvəl nəfsi sorğu-sual etmək | 50 |
| Molekulların hiss edilməyən hərəkətindəki incə təfərrüat | 54 |
| Hər an sakitləşdirici üslubdan istifadə etməyin əhəmiyyəti | 58 |



DÜŞÜNƏN İNSAN
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Sentyabr 2014; № 34
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.
Reyestr № 3418



Təsisçi və redaktor: Ziya Kazımov
Telefon: (077) 381 61 91
E-mail:info@dusuneninsan.az
www.dusuneninsan.az
Ünvan: AZ1000 Abonent qutusu 35, Bakı, Azərbaycan



Çapa imzalanma tarixi:
Şərq-Qərb mətbəəsində çap edilib.
Tiraj: 300
Qiyməti: 2 manat

## Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev

*"Biz öz xalqımıza, öz gücümüzə güvənirik. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik və etməliyik. Azərbaycan xalqı öz ordusunu sevir, ona inanır, güvənir".*





# Qan tökməyin, amandır..!

**İnsanlar! Çox çətindir
sizi həmişə sevmək.
Ancaq, hərdən olsa da,
nə asan nifrət etmək.
Bir-birinizi sevin
Sabaha ruhlandırın.
Kimsəni incitməyin,
Könlünü sındırmayın.
"Ötən günə gün çatmaz,
Calasan günü-günə".
Siz də heç tələsməyin,
Üfüqləri yenməyə... –
Sevinc, kədər, göz yaşı...
Qan-tərə də batsanız
Zaman bunu hiss etmir,
Vecinə də almayır...
Şadlıq-kədər anlamır,
Ötür, saymır heç kimi.
Zaman üçün bir heçdir,
İnsan tələskənliyi...
Zaman, yaxşı bilirsən,
Sənə həsəd çəkirəm.
Sevirəm, qısqanıram –
Dərindən hiss edirəm.**

**Bir səhərlər mənim ol,
bir də yuxularımda...
Zəncirləsəm mən səni,
Çin olar arzular da.
Əbədiyyən sən mənim,
Olammazsan, bilirəm.
Onu da bilirsən ki,
Hamı kimi deyiləm.
Verərəm nəyim varsa,
Təki səni ram edim.
Yandıraram hamını,
Təki səni əlimdə,
Əridərək mum edim.
Ağlayıram... amma ki,
Göz yaşlara xəsisdir.
Gözdən heç yaş gəlməsin,
Gəldiyi bəs eyləyir;
Hər bir damcı göz yaşı
Kirpiyimdə bir sirdir.
İnsanlar!
Öldürməyin,
Qan tökməyin, amandır..!
Onsuz da zalım əcəl,
Hər qapını tanıyır...**

**Nə olsun, gecə-gündüz,
dənizlər də can alır.?! –
Talelər yox edirlər,
Gəmilər batırırlar... –
Suya dönür diləklər...
Gecə!
ehtirasım, hissimsən.
Səni nə bölüşərəm,
Nə də ki, itirərəm...
Mənə ulduz bəxş edən,
Təkliyimi ram edən,
Yeganə həmdəmimsən...
Adamlar bir-birinə
Küsməsin, darılmasın...
Ulu Göydən diləyək,
Günahlar bağışlansın..!
Mənə elə gəlir ki,
yuxulara dalanda
başqa aləm görürəm...
Üz tutub insanlara
səslənmək istəyirəm:
Sevin bir-birinizi... –
Elə bilin bu şeiri
Sizə alqış edirəm...**

# Elmi-texnoloji

## Əl qabiliyyəti olan robotlar həyatımızı dəyişdirəcək




Brüsseldə 2014-cü ilin son model robotlarının təqdimatı keçirilib. Yapon mühəndislərinin icad etdiyi robot Asimonun yeni buraxılışı "Honda" tərəfindən mediaya təqdim edilib.

Yapon şirkəti 1996-cı ildə icad etdiyi Asimoya beşbarmaqlı əl əlavə edərək hər barmağa qabiliyyətini artıran güc sensoru qoyub.

Digər funksiyaları ilə yanaşı Asimoya cisim axtarma sistemi ilə yanaşı boş stəkana qrafindən su tökmək və ya nazik kağızı əli ilə tutmaq kimi hərəkətlər də əlavə edilib.

"Honda Robotları" Marketinq və İctimaiyyətlə əlaqələr müdiri Viki Hud Asimonun yeni buraxılışını təqdim edib:

"Asimo əl hərəkətlərində 53 dərəcədə müstəqillik qabiliyyətinə malikdir. Bu müstəqillik dərəcəsi insan əlində bir oynağın hərəkət qabiliyyətinə bərabərdir. Asimonun bir-birindən müstəqil işləyən 57 müxtəlif motoru onun çətin əməliyyatları həyata keçirməsini təmin edir. Asimonun əlinin tutma və rahat hərəkət etmə qabiliyyətini 2 dərəcədən 13 dərəcəyə qaldırmışıq."

Yaponiyadan sonra ABŞ-da da robotlar əl qabiliyyəti ilə həyata daxil olur. Əkinçi robotlar əkinçilik və heyvandarlıq sahəsində insanlara asanlıq yaradır. Viskonsin əyalətində işləməyə başlayan əkinçi robotlar inəkləri yemləyir, süd sağır və axurları təmizləyirlər.

Əl qabiliyyəti təkmilləşdirilmiş robotlar gündəlik həyatımızı daha da asanlaşdıracaq.

# Xəbərlər



## 14 ildə nüvə gücündə 26 asteroid düşüb

2000-ci ildən etibarən Yer kürəsinin müxtəlif bölgələrinə 26 böyük asteroid düşdüyü bildirilib. Yaşayış bölgələrindən kənara düşən asteroidlərin nüvə bombası ilə eyni gücdə olduğu məlum olub.

ABŞ-dan olan astrofizik Piet Hut ilə keçmiş NASA astronavtı Ed Lunun 2002-ci ildə qurduğu B612 təşkilatı zərərli meteorit təhdidinin düşünüldüyündən daha təhlükəli olduğuna dair hesabat yayımlayıb.

Hesabata əsasən 2000-ci ildən etibarən yer üzündə asteroidlərin səbəb olduğu 26 nüvə partlayışı baş verib.

Asteroidlərin güclü şəkildə partladığı bölgələrin yaşayış bölgələrindən uzaqda və okeanlarda olduğu müəyyən edilib.

Meteoritlərin böyük əksəriyyəti atmosferin yüksək təbəqələrində partlayıb.

Partlayışın gücünün 1-600 kiloton TNT partlayışına bərabər olduğu qeyd edilib.

6 avqust 1945-ci ildə Xirosimaya atılan nüvə bombasının gücü 15 kiloton idi. Bombardmanda 40 mindən çox insan həyatını itirmişdi.

Meteoritlərin əksəriyyəti atmosferin yüksək təbəqələrində partlayıb və Yer kürəsi ilə toqquşana qədər müəyyən edilməyib.

Hesabatla bağlı açıqlama verən fizik Ed Lu "təqribən 10 min asteroidin böyük şəhərləri yerlə yeksan edəcək potensialı olduğunu müəyyən etmişik. Növbəti toqquşmanın harada və necə olacağını bilmirik" deyib.

# Yengəclər özlərinə uyğun evi ƏN QISA ZAMANDA necə tapırlar?

Yengəclər özlərinə uyğun evi ən qısa zamanda necə tapırlar?

Yengəclər böyüdükcə qabıqlarının içinə sığmırlar. Ona görə, bu canlılar bizim kimi daima köçürlər. Lakin hermit yengəcləri ev axtarma prosesində insanlardan daha praktiki, sosial metoddan istifadə edirlər.

Tafts Universiteti İncəsənət və Elm Fakültəsində və Yeni İngiltərə Akvariumunda fəaliyyət göstərən bioloqların apardığı bir tədqiqat hermit yengəclərinin yeni, daha yaxşı ev tapmaq üçün sosial nizamla hərəkət etdiklərini üzə çıxarıb.

Tədqiqata əsasən, tədricən böyüdüklərinə görə qabıqlarına sığmayan yengəclər daha böyük ev tapmaq üçün ilbizlərin tərk etdiyi qabıqlarını axtarmağa başlayırlar. Lakin hermit yengəclərinin uyğun ev tapması o qədər də asan olmur. Çünki yengəclər evlərini diqqətlə seçirlər. Üstəlik, özlərinə uyğun ev tapmadıqda müdafiəsiz qalıb düşmənlərinin hücumlarına məruz qalma ehtimalına baxmayaraq...

Ev tapmaq yengəclər üçün çox asan deyil. Çünki həmişə kifayət qədər qabıq tapılmır və bir çox yengəc açıqda qalır. Hermit yengəcləri bu problemi "sosial nizam" əmələ gətirərək həll edirlər. Boş qabıq tapdıqda bütün yengəclər



böyükdən-kiçiyə qədər yeni evin qarşısında sıraya düzülürlər. Bu yeni evə, əvvəlcə, ən qabaqda olan ən böyük yengəc girir. Ən böyük yengəc yerləşdikdən sonra sıra ilə bütün digər yengəclər qabığın içinə doğru hərəkət edirlər. Beləliklə, bir qabıq bir çox yengəcin evi olur.

Hermit yengəclərinin fədakarlığı

Tədqiqatı aparan elm adamlarına rəhbərlik edən Randi Rotcan (Randi Rotjan) tədqiqat zamanı hermit yengəclərinin qeyri-adi xüsusiyyətinə şahid olduqlarını deyib: fədakarlıq...

Müşahidələrə əsasən, bir hermit yengəci yuva axtararkən özünə böyük olan ilbiz qabığı tapdıqda həmin qabığın içinə yerləşmir, o qabığa uyğun böyüklükdə başqa yengəc gələnə qədər gözləyir. Böyük yengəc gəldikdə yenidən böyükdən kiçiyə doğru sıra düzülür və beləliklə, heç bir haqsızlıq olmadan bütün yengəclər özlərinə uyğun yeni yuva əldə edirlər. Randi Rotcan: “Yengəclər növbəyə durmaq üçün saatlarını sərf edirlər. Lakin növbənin yuvaya yerləşməsi saniyələr çəkir. Eynilə domino daşları kimi...” -deyərək yengəclərin sosial nizamını və iş birliyini izah edir.

Hermit yengəclərinin bu qeyri-adi xüsusiyyətləri bizə mühüm həqiqəti xatırladır. Bu canlılara sosial nizam qurmağı ilham edən və fədakar davranışlar etdirən sonsuz mərhəmətli və şəfqətli, bütün canlıların yaradanı və qoruyanı Rəhman və Rəhim olan Allah`dır. Rəbbimizin sonsuz mərhəməti və şəfqəti təkcə bu canlıları deyil, insan da daxil olmaqla, bütün kainatı əhatə edir. Yengəclər kimi bütün canlıların uca Allah`a təslimiyyəti bir ayədə belə bildirilir:

**... Halbuki, göylərdə və yerdə olan hər bir məxluq istər-istəməz Ona təslim olmuş və Ona da qaytarılacaqlar. (Ali-İmran surəsi, 83)**

Hermit yengəclərini düşmənlərindən qoruyan bərk qabıqları yoxdur. Bunun əvəzinə boş dəniz ilbizi qabığından qoruyucu örtük qazanırlar. Daha əvvəl bir dəniz ilbizinin evi olan bu qabıq yengəcə uyğun olması üçün diqqətli şəkildə seçilməlidir. Yengəc böyüdükcə qabığın ölçüsü də böyüyür. Ona görə, yengəc öz qabığı böyümədən əvvəl yeni qabıq axtarmağa başlayır. Yenisini tapdıqda sürətlə köhnə qabığından çıxıb yenisinə girir. Başqa cür müdafiəsi olmayan yengəcin bir qabıq taparaq özünü qorumağı düşünməsi qeyri-mümkündür, belə bir şeyi yengəc digər canlıdan da öyrənə bilməz. Yer üzündəki bütün canlılar kimi hermit yengəcləri də yaratmada heç bir şəriki olmayan uca Allah tərəfindən yaradılıblar.

Yengəcin qüsursuz göz quruluşu

Okeanların dərinliyində  zülmət qaranlıqda nəhəng yarğanlar boyu uzanan, 400 dərəcə temperaturda qaynar su fışqıran hidrotermal laylar var. Həmin lay kənarında bythograea thermydron növündən olan yengəc yaşayır və bu qədər yüksək temperatur ona təsir etmir.

Yaşadığı yer zülmət qaranlıqdır. Ancaq bu



qaranlıqda yengəcin gözü əsas köməkçidir. Yengəci 400 dərəcəyə çatan temperaturdan uzaq saxlayan xüsusi göz quruluşudur.

Bu yengəclər milçəklər kimi mürəkkəb göz quruluşuna malikdirlər. Gözlər fokuslama edir və okeanın dərinliklərindəki zəif işığa həssasdırlar. Sürfə dövründən çıxan yengəclərin gözü dibə doğru itən işığı hiss etmək üçün dəyişməyə başlayır. Uzun müddətdə baş verən bu dəyişiklik yengəcin DNT-sində şifrlənmiş xüsusi proqram əsasında qüsursuz baş verir. Tamamilə zülmət qaranlıqda təqribən 4000 metr dərinlikdəki okean dibinə çatan yetkin yengəcin gözünün iri, göz bülluru olmayan tor qişası var. İşığa çox həssas olan bu gözlər zülmət qaranlıqda yengəc üçün gecə durbini funksiyasını yerinə yetirir. Yengəc bu şəkildə gözləri ilə hidrotermal layların ətrafındakı zəif işıqları asanlıqla görür. Beləliklə, yüksək temperaturu ilə digər canlıları öldürən hidrotermal layları uzaqdan görərək özünü qoruyur. Bu kompleks plan üstün ağılın varlığını göstərir. Uca Allah yengəci yoxdan yaratmış və ona ehtiyacı olan gözlər bəxş etmişdir.





Bilirdinizmi?

Paleontoloqlar bu günə qədər minlərlə yengəc fosili tapıblar. Ən son tapılan yengəc fosili 150 milyon yaşındadır və həmin dövrdə yaşamış yengəclərin dövrümüzdəki yengəclərlə eyni xüsusiyyətlərə malik olduğu görülür. Tapılan fosillərin ortaq cəhəti canlıların bu günə qədər dəyişmədiyini sübut etməsidir.

# QURANDAKI CİHAD





Qurandakı cihadda adam öldürmə yoxdur. Qurandakı cihadda bombalama yoxdur. Kamikadzelər, məsum insanlara hücum etmək yoxdur. Qurandakı cihadda nifrət, lənətləmə, kin yoxdur. Qurandakı cihadda hz.İbrahimin nəsli, hz.Yəqubun, hz.Musanın nəsli lənətlənmir. Qurandakı cihadda hədə-qorxu yoxdur. İslam belə din deyil. Qırğın, ölüm, nifrət və qəzəb püskürən din nə İslam, nə xristian, nə də yəhudilikdir.

Biz müsəlmanıq. Dinimizi Qurandan öyrənirik. Bizim Qurandan öyrəndiyimiz dində qırğın, öldürmə, kin, nifrət, qəzəb yoxdur. Bizim dinimiz bizə bir insanı - hansı dindən, hansı millətdən, hansı düşüncə tərzindən, hansı irqdən olsa da - sevməyi və hörmət etməyi öyrədir. Bizim dinimiz bizə kitab əhlini tanıdır. Xristianların və yəhudilərin olduğunu göstərir. Onları sevməyi, qorumağı və onlara şəfqətlə yanaşmağı bizə Quran öyrədir. Quran bizə kitab əhli ilə qardaş olmağı, kitab əhlinə sahib çıxmağı əmr edir. Quran bizə hz.İbrahimin, hz.Musanın, hz.İsanın və bütün digər peyğəmbərlərin bizim peyğəmbərimiz olduğunu öyrədir.

Odur ki, əgər bir insan: “Qurandan öyrəndim, öldürməliyəm, bombalamalıyam, lənət oxumalıyam”, -deyirsə, ya yalan danışır, ya da səhv öyrədilib. Müsəlman olduğunu deyən bir radikal sadəcə öldürmək, bombalamaq və lənət oxumaq üçün uydurulan bir dinə tabe olub. Uydurulan bu dinin mənbəyi Quran deyil. Öpüb göz üstünə qoyulan, divardan asılan müqəddəs kitabı bəlkə də heç oxumayıb.

Bu uydurma dində hər şey qap-qaranlıqdır. Sevgi əvəzinə nifrət, şəfqət əvəzinə qəzəb, qardaşlıq əvəzinə düşmənçilik, gözəllik əvəzinə çirkinlik, incəsənət, estetika, elm və mədəniyyət əvəzinə cəhalət var. Belə bir dinə inanan insana silah vermək asandır. “Filan qrup sənin düşməníndir”, -demək asandır. Onu qəzəbləndirmək asandır. Qəzəbli qruplar formalaşdırmaq asandır. Dünyada təkcə İslamda deyil, bütün haqq dinlərdə, hətta marksizmdə, satanizmdə, materializmdə, qısası, bütün dinlərdəki və ideologiyalardakı bu böyük bəla radikalizmdir.

Radikalizm nə üçün var? Çünki insanların böyük əksəriyyətinə bu öyrədilib. Başqa dini öyrənməyiblər. İslam adı altında ortaya çıxan radikalların da İslam deyə bildiyi şey sadəcə bu olub. Cahil olublar. Cəmiyyətdən, incəsənətdən, elmdən uzaqlaşdırılıblar. Cihad məfhumunu yanlış öyrənib yanlış tətbiq ediblər. Çünki onlara belə öyrədilib. Öyrəndiklərini tətbiq edərək yaxşı əməl etdiklərini zənn ediblər. Özlərinə, dinlərinə, ailələrinə, öz millətlərinə və əlbəttə, başqalarına zərər verdiklərini heç düşünməyiblər.



# BU DEYİL!

Halbuki, Qurandakı cihad onların bildiyi kimi deyil. Cihad sözünün kökü cəhddir. Ərəb dilində cəhd sözünün mənaları bunlardır: 1. Çalışmaq, cəhd etmək, əzm, fədakarlıq etmək 2. İnsanın öz nəfsinə hakim olması. İslamda cəhd etmək qarşı tərəfi maarifləndirmək, gözəl əxlaqı öyrətmək, insanları pis əməllərdən uzaqlaşdırmaq üçün cəhd etməkdir. Yəni cəhd edən bir müsəlman yaxşı əməlləri, doğrunu insanlara öyrətmək üçün çalışmalı, sevgini, sülhü, şəfqəti yaymaq və insanları pis əməllərdən çəkindirmək üçün onları fədakarlıqla tərbiyə etməlidir. Bir müsəlmanın ikinci cihadı öz nəfsi ilədir. Nəfsinin pisliyindən, kin və qəzəbdən uzaqlaşaraq yaxşı insan olmaq insanın öz nəfsini tərbiyə etməsidir.

Radikallar bunu bilmirlər. Bu səbəbdən, öldürərək cihad etdiyini zənn edən bir nəfəri qınamaq, lənət oxumaq, hədələmək, həbs etmək, sürgün etmək fayda verməz. Beynindəki həmin yanlış məlumat nə silahla, nə də hədə-qorxu ilə aradan qalxar. Həmin insan zərərsizləşdirilsə də, beynindəki düşüncə tərzi qalacaq. Yanlış fikir yanlış insanlar formalaşdırmaqda davam edəcək. Məlumatı ancaq və ancaq biliklə məhv edə bilərsiniz. Bunun başqa yolu yoxdur. Problem isə maarifsizlikdir. Onun maarifləndirilməsi üçün heç vaxt cəhd edilməyib, indiyə qədər heç əl atılmamış metodu tətbiq etmək lazımdır. Yeni dildə- “sülh dili”ndə danışmaq lazımdır.

Qəzəbli anda lənət oxumaq asandır. Ancaq sülhün dili başqadır. Sülh dilində “terrorçular” sözü yoxdur. “Yanlış tərbiyə edilmiş cahil insanlar” sözü var. Bu, önəmlidir, çünki terrorçu dedikcə tədricən terrorçu olduğuna inanan bir insanı tərbiyə etmək daha da çətinləşir. Sülhün dilində məhvedicilik, zərərvericilik sözü yoxdur. Tərs üslub yoxdur. Şərtlər qəzəblənməyə uyğun olsa da, sülh dilində qəzəbli üslubdan istifadə edilməz. Sülh dilində “xainsən, qatilsən” deyən qəzəbli insanlar deyil, “cahilsən, məlumatsızsan” deyən maarifçilər var. İllərdir işlədilən, nifrət və qırğından başqa heç nəyi artırmayan qəzəbli üslubu bir kənara qoyub ağıl, fədakarlıq və üstünlük tələb edən sülh dilində danışan insanlar, millətlər olmalıdır. İllərdir heç bir həll yolu gətirməmiş lənətləyənlər ordusuna qoşulmamaq, sülh dilində danışan üstün insanlar olaraq bu fəlakətləri aradan qaldıran şəxslər olmaq lazımdır.

Heç bu metodu sınayan millətlər, qruplar olmayıb. Çünki yeganə metodu biliblər. Qarşılarındakı təcavüzkar qüvvələrə bir damğa vurub onları lənətləyiblər. Sanki bu həll yolu imiş kimi daima qəzəb içində yaşayan və daima lənətləyən yeni nəsillər formalaşıb. Problemin əsl səbəbi olan cəhaləti anlamağa çalışmayıblar. Əlbəttə, hər qrupda olduğu kimi, bu qrupların da içində xainlər var. Lakin böyük əksəriyyəti təşkil edən cahillər maarifləndirilərsə, xainlərin gücü qalmaz. Lakin unutmaq olmaz ki, cəhalət yalnız sülh dilində danışan xüsusi insanların özəl və etinalı tərbiyə etməsi ilə aradan qaldırıla bilər. Cəhalət aradan qaldırılsa, qırğın törətmək, bomba atmaq, kamikadze olmaq üçün cəlb ediləcək kimsə qalmaz. Qırğınlar və bombalar məntiqini itirər. Təcavüzkar qrupa sülh dilindən istifadə etmək, əlbəttə, xüsusi kamillik tələb edir. Ancaq çətin anlarda problem daima çətin olanı tətbiq etməklə həll olunmuşdur. Həll yolu sülh dili ilə radikalları tərbiyə etməkdir. İnsanlar istər qəbul etsinlər, istər etməsinlər, bu, YEGANƏ HƏLL YOLUDUR.

# ERİTROSİTLƏRİN HASİL EDİLMƏSİNƏ NƏZARƏT EDƏN HORMON: ERİTROPOETİN

***1- Eritropoetin nə üçün həyati əhəmiyyətə malik hormondur?***

***2- Eritropoetin hansı hallarda hərəkətə keçir və eritrositlərin hasilatını necə işə salır?***

Qandakı eritrositlərin içində yerləşən hemoqlobin molekulu qanda oksigen və karbonu daşıyır. Eritrositlərin, dolayısilə, hemoqlobinin azalması anemiya, yəni qan azlığı adlanan xəstəliyə səbəb olur. Anemiya insanda ciddi problemlərə səbəb olan xəstəlikdir. Çünki tez yorulma, halsızlıq, nəfəs darlığı, sinədə ağrı, dəridə solğunluq, ürək çatışmazlığı və ürəyin ritminin pozulması kimi narahatlıqlar əmələ gəlir. Bu səbəbdən, eritrositlər həyatımızın davam etməsi üçün lazımlıdır. Müəyyən səviyyədən az olduqda isə həyatımıza davam edə bilmərik. Eritrositlərin bu qədər önəmli olmasının səbəbi içlərində hemoqlobin molekullarının olmasıdır.

Eritrositlər sümük iliyində hasil edilirlər. Qırmızı ilikdə hasil edilən eritrositlərin hasilat prosesinə dəqiq nəzarət edilir və 1 mm3 qanda olan 4.5-5 milyon eritrosit sayının bu səviyyədə qalması üçün mürəkkəb, dəqiq əməliyyatlar aparılır. Əgər qırmızı ilikdə qan hasilatında bir az azalma olsa, bədəndəki hüceyrələr oksigensiz qalaraq ölər. Ona görə də sümük iliyində müntəzəm qan hasil edilməlidir. Bu qədər mühüm prosesdə çatışmazlığın olmaması üçün orqanizmdə müxtəlif tədbirlər görülmüşdür. Bu tədbirlərdən biri orqanizmdəki eritrosit hasilatına nəzarət edən və tənzimləyən hormondur. Eritropoetin adlanan bu hormon toxumalara kifayət qədər oksigen verilib-verilmədiyini yoxlayır. Toxumalar oksigensiz qaldıqda eritropoetin sümük iliyində eritrosit hasilatını sürətləndirən maddənin sintez olunmasını və qana buraxılmasını təmin edir.

Göründüyü kimi, insan öz bədəninin çox az hissəsinə, həm də qismən, hakimdir. Məsələn, yeriyir, danışır, əlləri ilə bir iş görür. Ancaq bədəninin dərinliklərində minlərlə kimyəvi və fiziki proses insanın xəbəri olmadan və iradəsindən kənar baş verir. Eritropoetin buna tipik nümunədir. Öz bədəninə və həyatına hakim olduğunu zənn edən bir insan yanılır. Rəbbimiz bir ayədə bu həqiqətə belə diqqət çəkir:



**Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!"– deyər, o da olar. (Bəqərə surəsi, 117)**

## Avtomatik işləyən fövqəladə vəziyyət sistemi

Eritropoetinin insan orqanizmindəki ən əsas mənbəyi böyrəkdir. Bu hormonun təqribən 90%-i böyrəkdə, 10%-i qaraciyər və digər toxumalarda hasil edilir. Böyrəklərə göndərilən qandakı eritrosit miqdarını böyrəklər müntəzəm ölçür. Həssas reseptorlarla müəyyən edilən rəqəmlər dərhal dəyərləndirilir və lazımi tədbirlər görülür. Böyrək toxumasına gələn oksigen miqdarı azaldıqda (bunun ən əsas səbəbi qanda eritrosit sayının, o cümlədən hemoqlobinin azalmasıdır) böyrəkdə eritropoetin sintezi artır. Hormon sümük iliyinə təsir göstərir. Eritropoetin sümük iliyinə təsir edərək əsas qan hasil edən hüceyrələrə eritrosit sayının azaldığını bildirərək eritrosit hasilatını artırır. Beləliklə, hemoqlobin miqdarı artdığına görə, böyrəyə gələn oksigen miqdarı normallaşır və eritrositlərin miqdarı lazımi həddə çatır. Bir eritrosit hüceyrəsi bədəndə təqribən 120 gün dolaşır. Bu müddətin sonunda fəaliyyətini başa vurur və makrofaj adlı immun hüceyrələri tərəfindən məhv edilir. Məhv olmuş eritrositlərin əvəzinə yeniləri hasil edilir. Normal şərtlərdə saniyədə 2.5 milyon eritrosit hasil edilir. Ancaq lazım gəldikdə bu miqdar artırılır.

Göründüyü kimi, böyrək laboratoriya kimi ölçmə aparır, faktları dəyərləndirir və lazımı tədbiri görür. Sümük iliyindəki hüceyrələr də böyrəklərdən gələn hormonla göndərilmiş xəbəri alır, oxuyur və buna əsasən hərəkətə keçirlər.

Üstəlik, bu proseslərin hamısı milyardlarla insanın hər birində eyni şəkildə baş verir, bu uyğunluq bütün insanlarda eyni şəkildə davam edir. Bütün bu proseslərdə hüceyrələr ağıllı davranırlar. Bu ağılın mənbəyi nədir? Hüceyrələr təsadüfən belə ağıllı davrana bilməzlər. Hüceyrələrə bu ağılı yerləşdirən, necə davranmalarını onlara ilham edən hər şeyi nəzarətdə saxlayan Allah`dır. Allah`ın göylərdə və yerdə baş verən hər hadisəyə hakim olduğu və hər şeyin Onun nəzarəti altında baş verdiyi Quranda belə bildirilmişdir:

**Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Hamısı Ona boyun əyir. Məxluqatı ilk dəfə yaradan, sonra onu bir daha təkrarlayan Odur. Bu da Onun üçün çox asandır. Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Rum surəsi, 26-27)**

## Avtomatik işləyən fövqəladə vəziyyət sistemi hansı hallarda işə düşür?

Qəza nəticəsində ağır qanaxma baş verdikdə və ya hər hansı səbəbdən qan itkisi olduqda orqanizmimizin bu avtomatik sistemi işə düşür və itki sürətlə bərpa edilir. Bundan əlavə, nəfəs alınan havada oksigen miqdarı azaldıqda da əlavə eritrosit hasil edilir. Hündür dağa qalxarkən orqanizmdə meydana gələn dəyişikliklər də bu dəqiq yoxlama sistemi ilə müəyyən edilir. Orqanizmdə dəyişikliklərin meydana gəlməsinin səbəbi hündürlük artdıqca oksigenin azalmasıdır. Bu məhdud oksigeni tutmaq üçün əlavə eritrosit hasilatı prosesi qısa müddətdə başlayır. Dağın hündür yamaclarına çıxıb nəfəsinizin kəsildiyi, hətta huşunuzu itirəcək hala düşdükdən təqribən bir neçə saat sonra orqanizm yeni mühit üçün daimi tədbir görməyə qərar verir. Bu qərar əsasında böyrək və qismən də qaraciyər eritropoetin hormonu ifraz etməyə başlayır. Bundan sonrakı proseslər yuxarıda bildirildiyi kimi, böyük sürətlə sümük iliyinə daha çox eritrosit hasil etməsi üçün əmr göndərilməsi ilə davam edir.



3-5 gün ərzində yeni eritrositlər qanın içinə yayılırlar. 15-ci gündən sonra eritropoetin hasilatı artıq azalır. Çünki orqanizm olduğu mühitə uyğunlaşmış, bədəndə fövqəladə vəziyyət sona çatmışdır. Bədənimizdə təcəlli edən bu ağıl və planlama da, eritropoetin hormonu da insanı yoxdan yaradan, insanı eritrositlərə möhtac yaradan, sonra bu ehtiyacın təmin edilməsi üçün qüsursuz sistem yaradan göylərin, yerin və ikisi arasındakıların Rəbbi olan Allah`ın əsəridir. Allah`ın şanı çox ucadır:

**Allah, Ondan başqa ilah yoxdur, (əbədi) yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxluqatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, ucadır, uludur. (Bəqərə surəsi, 255)**

## Eritrositlərə biz nəzarət etməli olsaydıq...

Qandakı eritrosit miqdarı insanın həyatda qalması üçün çox mühüm amildir. İnsanın yaşaması üçün necə nəfəs almağa və su içməyə ehtiyacı varsa, qanında müəyyən miqdarda eritrosit olmasına da ehtiyacı var. Qandakı eritrosit miqdarı normadan aşağı düşdükdə insan həyatını itirər. İndi bu misal üzərində düşünək:

Qarşınıza xüsusi şüşənin içində 1 litr qan qoyulub. Bu qan əməliyyatda gözləyən xəstəyə köçürülməlidir. Ancaq bir problem var. Qanın içində eritrosit miqdarı azdır, ancaq nə qədər az olduğu müəyyən edilməyib. Siz əksik miqdarı bərpa etməlisiniz və bunun üçün sizə eritrositlərlə dolu böyük qab verilib. Nə qədər eritrositə ehtiyac olduğunu necə bilərdiniz?

Bu təqdirdə, əvvəlcə, şüşədəki qanda nə qədər eritrosit olduğunu ölçməlisiniz. Ancaq bunun üçün çox təkmil cihazlar lazımdır ki, həmin vaxt bunun



üçün zaman və imkan yoxdur. Ona görə, çarəsiz qalacaqsınız. Qandakı eritrosit miqdarını ölçə bilməməyiniz bir insanın ölümünə səbəb olacaq.

Misalımızı bir az dəyişdirək. Bu qanın içində heç eritrosit olmasın. Siz bu qana ən ideal miqdarda eritrosit əlavə etməlisiniz. Bəs bunu necə müəyyən edərdiniz? Qabdakı eritrositlərin nə qədərini qana qarışdırarsınız? Bir litr qana qabdakı eritrositlərdən nə qədər qarışdıracağınızı necə müəyyən edəcəksiniz? Bu suallara cavabınız yoxdur.

Bu sualları təfərrüatı ilə düşündükdən sonra eritropoetinin həyata keçirdiyi möcüzəni daha yaxşı anlayarıq. Qandakı eritrosit miqdarı azaldıqda eritropoetin hormonu şüurlu hərəkət edərək sümük iliyinə xəbər göndərir, eritrosit hasilatını işə salır. Kifayət qədər eritrosit hasil olunduqda proses dayandırılır. Eritropoetin hormonundakı şüur insan orqanizminin yaradıldığının açıq-aydın dəlilidir. Çünki gözlə görünməyəcək qədər kiçik bir molekul bir çox xüsusiyyətə, qabiliyyətə və funksiyaya malikdir. Eritropoetin hormonunun təsadüfən əmələ gəldiyini iddia etmək böyük cahillik və ağılsızlıqdır. Bu hormon Allah`ın yaratmasındakı uyğunluğun və qüsursuzluğun dəlillərindən biridir:

**... Rəbbim elmi ilə hər şeyi əhatə etmişdir. Məgər düşünüb ibrət almayacaqsınız? (Ənam surəsi, 80)**

Eritropoetin hormonu ilə uca Allah insan orqanizmində təhlükəsizlik sistemi yaratmışdır. Şübhəsiz ki, bu, Allah`ın yaratma sənətinə nümunə olduğu kimi, eyni zamanda, təkamül nəzəriyyəsinin iç üzünü göstərən dəlildir. Çünki orqanizmdəki bütün sistemlərin ortaq məqsəd uğrunda hərəkət etmək üçün proqramlanması və bu proqramı işlədən mərkəzi sistem olması təkamül nəzəriyyəsinin təsadüf nağılının əsassız olduğunu sübut edir. Quranda Allah bu həqiqəti belə bildirmişdir:

**...Əvvəlcə səni torpaqdan, sonra bir qətrə sudan yaratmış, daha sonra səni adam şəklinə salmış Allah`ı inkarmı edirsən? Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram! (Kəhf surəsi, 37-38)**



# Din əxlaqının cəmiyyətə qazandırdıqları

Din əxlaqı hər şeydən əvvəl Allah sevgisi qazandırdığına görə, bu, bütün insanlara çox müsbət və gözəl təsir edər. Hər kəs Allahın rizasını qazanmaq üçün gözəl əxlaqlı davranar, bir-birini Allah rizası üçün sevər, hörmət edər. Bütün cəmiyyətə şəfqət, mərhəmət, tolerantlıq hakim olar. İnsanlar Allahın əmrinə əsasən, xeyirli işlər görməkdə yarışar, bütün imkanlarını daha xeyirli fəaliyyət göstərməyə yönləndirərlər.

Habelə, Allah qorxusu sayəsində hər kəs əxlaqsızlıqdan və pis işlərdən çəkinər. Əsrlər boyu qarşısı alına bilməyən hər cür pis şeylərə bir anda son qoyular. Din əxlaqının ab-havası hər yerə hakim olar. Əlbəttə, burada Quranda bildirilən həqiqi din əxlaqına uyğun yaşamaq nəzərdə tutulur.

Quran əxlaqına uyğun yaşadıqda uşaqlarını din əxlaqı ilə böyüdərək dövlətə və millətə xeyirli insanlar olması üçün səy göstərən, öz aralarında da sevgi və hörmətlə davranan, hərəkətləri və danışıqları ilə uşaqlarına nümunə olan ata-analar üzə çıxar. Nəticədə də ata-anaya itaət edən, hətta Allahın əmrinə uyğun olaraq onlara: "Of", - belə deməyən, doğru ilə yanlışı hələ kiçik yaşlarından etibarən ayırd edə bilən, vicdanını dinləyərək pis işlərdən çəkinən uşaqlar böyüyər. Lazım gələrsə, dövləti üçün canını təhlükəyə atar, dövlətinin, millətinin mənfəətini öz mənfəətindən üstün tutar. Milli-mənəvi dəyərlərini cidd-cəhdlə qoruyar.

Din əxlaqının hakim olduğu mühitdə tələbələr də dövlətə, millətə hörmət və sevgi bəsləyər. Nəinki onlara qarşı mübarizə aparar, əksinə, dəstək olub yardım edər. Dövrümüzdə olduğu kimi, polisə hücum etməz, dövləti qoruyan və müdafiə edən bu mühafizəçilərə çox hörmət edərlər. Bütün cəmiyyət dövlətə və polisə tam etibar edər və sahib çıxar. Tələbə etiraz aksiyaları, qardaşlar arasında dava-dalaş, sağ-sol qarşıdurmaları kimi problemlər aradan qalxar. Çünki heç kimin bir-birilə yola getmədiyi, mübarizəyə təşviq edən məsələ qalmaz. İnsanlar Allahın bildirdiyi gözəl əxlaq anlayışını mənimsəyər, nəticədə, bir-birinin ziddinə getməz. Problemlərin həllində hər kəs özünü qarşısındakının yerinə qoyar, mərhəmət edər, anlayışla yanaşar. Beləliklə, hər problem qısa müddətdə xoşluqla həll olunar.

Bu cür mühitdə dövlət də rahat idarə olunar. Ölkədə təhlükəsizlik və asayiş bərqərar olar. Rəhbərlər də insanlara qarşı çox ədalətli, mərhəmətli olar, hər cür ədalətsizlik aradan qalxar. Ona görə, özləri də hörmət görərlər. Nəticədə, dövlətin təməli də çox güclü və sarsılmaz olar.

İnsanların rahat yaşaması ilə cəmiyyətdə hər sahəyə bərəkət gələr. Elmi fəaliyyətlər artar, yeni kəşflər edilər, texnologiya, mədəniyyət və rifah səviyyəsi çox yüksələr. Çünki insanların hiss etdiyi mənəvi təzyiq aradan qalxdıqda rahatlaşar, azad və rahat düşünmə

qabiliyyətləri inkişaf edər. Gözəl əxlaqın yaşanması ilə insanların mallarına, gördükləri işlərə, ticarətə, kənd təsərrüfatına, sənayeyə bərəkət gələr. Hər sahə inkişaf edər.

İncəsənətdə də irəliləyişlər baş verər. Gündəlik sıxıntı və problemlərdən təxəyyülləri, düşüncə üfüqü daralmış insanlar din əxlaqının yaşanması ilə bu sıxıntılardan xilas olar. Beləcə, incəsənət qabiliyyətləri inkişaf edər, düşüncələri zənginləşər. Allahın ona Öz ruhundan üfürdüyünü və içində əbədi qalacağı, min bir növdə nemətlərlə dolu Cənnət vəd etdiyini dərk edən insan, təbii ki, incəsənət və estetikadan ən yüksək səviyyədə zövq alar. Ruhunda bunun zövqünü dərindən yaşayar. Habelə, ətrafındakı insanlara qarşı hiss etdiyi sevgi və hörmət də bu insanlara gözəlliklər bəxş etmə əzmini artırar, onu şövqləndirər. Ona görə, din əxlaqının həqiqi mənada yaşandığı və Qurana tamamilə əməl edildiyi mühitdə hər cür incəsənət sahəsi sürətlə inkişaf edər.

## Din əxlaqına uyğun yaşamasaq...

Din əxlaqına uyğun yaşamadıqda ata övlada, övlad ataya, qardaş qardaşa, işçi müdirə, müdir işçiyə düşmən olar. Bu cür anarxiya mühitində fabriklər, iş yerləri fəaliyyət göstərməz, zərər görər. Sosial anarxiya meydana gələr, kasıb təbəqələr varlılara hücum edər, varlılar kasıbları istismar edər. Cəmiyyətdə qarşıdurmalar, ziddiyyətlər, anarxiya baş verər. Bütün bunların kökündə isə insanların Allah qorxusunun olmaması durur. Allah qorxusu olmayan insanlar rahatlıqla haqsızlıq, ədalətsizlik edir, cinayət törədir, bənzərsiz zülm və qəddarlıq etməkdən çəkinmirlər. Habelə, vicdan əzabı belə çəkmədən etdikləri vəhşilikdən peşman olmadıqlarını da dilə gətirirlər. Halbuki, bunun qarşılığında axirətdə əbədi cəhənnəm əzabı olduğuna inanan insan əsla belə davranmaz. Quran əxlaqına uyğun yaşadıqda sadaladığımız hadisələrin heç biri baş verməz. Hər şey xoşluqla, ədalətlə, sakitliklə həll edilər.





*Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara (haqqını) verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız.*
*(Nəhl surəsi, 90)*





Din əxlaqına uyğun yaşamayan insanların ruhlarını zənginləşdirmək, gözəlləşdirmək kimi məqsədləri olmaz. Ətrafdakılara gözəl davranmaq üçün əsla şövqlənməzlər. Çünki ətrafdakı insanları meymundan törəyən və ölərək yox olub gedəcək varlıqlar kimi dəyərləndirirlər. Onların yeganə məqsədi nəfsani istəklərini, heyvani instinktlərini həyata keçirməkdir. Bu istəklərinin ardınca getmək isə insan ruhunu gözəlləşdirməz, əksinə, boğar. Bu cür insanların sənətə heç bir töhfəsi olmadığı kimi, gözəl sənətdən də zövq almazlar. İncəsənətdən zövq almayan, estetika anlayışı olmayan insanlardan ibarət cəmiyyətdə sənətkarlar da şövqlərini və əzmlərini itirərlər. Ancaq pul və mənfəət qarşılığında etdikləri üçün həqiqi sənət əsərləri ortaya çıxarmazlar.

Ailə dövlətin ən əsas fərdidir. Güclü ailə quruluşu olan millətin dövlət quruluşu da güclü olar. Ailə quruluşu çökmüş, mənəvi dəyərlərini itirmiş, üzvləri arasında sevgi, hörmət, birlik və bərabərlik, sədaqət duyğuları kütləşmiş dövlətin güclü olması mümkün deyil. Xüsusilə cəmiyyəti dinsizləşdirməyi hədəf seçən dövlətlərdə bu mənəvi çöküntü daha da sürətlənir və əxlaqi degenerasiya cəmiyyətin hər pilləsində özünü göstərir. Əsasən də milli və mənəvi dəyərləri qorumaq lazım gəldikdə Allah qorxusu olmayan insanlar mütləq laqeyd davranacaqlar. Bu davranış vətənə və millətə xidmət etməkdən, vətən və millət uğrunda mübarizədən çəkinməyə, hətta bölücü fəaliyyətlərə qədər böyüyə bilər.

Beləliklə, səmimi şəkildə Quranda tərif edildiyi kimi, din əxlaqına uyğun yaşadıqda dünya bir növ cənnətə çevrilər. İnsanların əsrlərlə həsrətində olduğu, əldə etməyə çalışdıqları, ancaq çox uzaq gördükləri ictimai səadətə qovuşmamaq üçün heç bir səbəb qalmaz.

**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi**

**isə qadağan edir. O, sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız. (Nəhl surəsi, 90)**

Quranın bu və buna bənzər ayələrindəki hökmləri bilən müsəlmanlar bu hədləri aşmazlar. Ona görə, inanan insanlardan təşkil olunmuş cəmiyyətdə əxlaqsızlıqların baş verməsinə də imkan olmaz.

Əlbəttə, insan səhv etməyə uyğun yaradılmışdır və müstəsna hal kimi insanlardan qaynaqlanan mənfi hadisələr ola bilər. Ancaq hər cür səhv davranışın Quranın hökmləri ilə və müsəlmanların şəfqətli yanaşması ilə öhdəsindən gəlmək asandır. Müsəlmanlar cahil cəmiyyətdə olduğu kimi, əxlaqsızlığı təşviq etməz, yaymaz və buna qarşı laqeyd qalmazlar. Çünki əsl müsəlmanların ən əsas xüsusiyyətlərindən biri Quranda tez-tez vurğulandığı kimi, bir-birlərinə yaxşılığı əmr edib pislikdən çəkindirmələridir:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar yaxşı işlər görməyi əmr edir, pis işlərdən çəkindirir, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 71)**

Allah Quranda din əxlaqına uyğun yaşayan insanlardan ibarət cəmiyyətin xüsusiyyətlərini belə bildirir:

**Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və Allaha iman gətirirsiniz… (Ali-İmran surəsi, 110)**

Şübhəsiz ki, belə bir cəmiyyətin əxlaqi cəhətdən din əxlaqına görə yaşamayan cəmiyyətdən nə qədər üstün olduğu aydındır.



# Fosillər təkamülü təkzib edir

## Tısbağa

Dövr: Kaynozoy erası, Oliqosen dövrü
Yaşı: 38-23 milyon il
Bölgə: Brul, Nebraska, ABŞ

Təkamülçülər fosil qeydlərində tısbağaların təkamül keçirdiyini göstərən heç bir faktın olmadığını belə etiraf edirlər:

"Ən qədim tısbağalara Almaniyadakı Trias dövrünün fosil yataqlarında rast gəlinir. Bu gün yaşayan nümunələrinə çox bənzəyən bərk çanaqlarına görə digər növlərdən fərqlənirlər. Daha erkən və ya ibtidai tısbağalara aid heç bir iz tapılmayıb. Halbuki, tısbağalar asanlıqla fosilləşir və fosillərinin çox kiçik hissəsi tapılanda asanlıqla tanınırlar". (Robert Carroll, Vertebrate Paleontology and Evolution, səh. 207)

Daha ətraflı:
**www.fosilmuzeyi.com**









## Dəfnə yarpağı

Dövr: Kaynozoy erası, Eosen dövrü
Yaşı: 54-37 milyon il
Bölgə: Qrin River, Yuta, ABŞ

Dəfnəkimilər fəsiləsinə aid olan dəfnə ağacının yarpaqlarından və meyvələrindən yağ əldə edilir. Bundan əlavə, yarpaqlarından da ədviyyat kimi istifadə olunur. Vətəni Asiyadır. Şəkildəki dəfnə yarpağı fosili bütün digər bitkilər kimi dəfnənin də təkamül keçirmədiyini sübut edir. Bundan 54-37 milyon il əvvəl yaşayan dəfnələr dövrümüzdə yaşayanlarla eyni xüsusiyyətlərə malikdir.

Daha ətraflı:
**www.fosilmuzeyi.com**






## Cüyür kəlləsi

Dövr: Kaynozoy erası, Oliqosen dövrü
Yaşı: 38-23 milyon il
Bölgə: Nebraska, ABŞ

38-23 milyon il yaşındakı cüyürlərin dövrümüzdə yaşayan cüyürlərlə heç bir fərqinin olmaması bu canlıların milyon illərdir dəyişmədiyini, yəni təkamül keçirmədiyini sübut edir.

Daha ətraflı:

**www.fosilmuzeyi.com**



# ELM YARADICININ VARLIĞINI QƏBUL EDİR

Din ilə elmin daima uyğunluq təşkil etdiyi açıq-aydın həqiqətdir. Bu uyğunluğun bir göstəricisi də keçmişdə və dövrümüzdə yaşayan, kəşfləri ilə bəşəriyyətə mühüm töhfələr vermiş imanlı elm adamlarıdır.

Əsrlərdir dinin təmin etdiyi azad, məhdudiyyətsiz ağıllı düşüncə qabiliyyətindən istifadə edərək elmə böyük töhfələr vermiş bir çox elm adamı var. Bu insanlar həm elmin din ilə tam uyğunluq içində olduğunu göstərmiş, həm də elmə və bəşəriyyətə böyük xidmət göstərmişlər. Nyuton, Kepler, Leonardo da Vinçi, Eynşteyn kimi elm tarixinə istiqamət verən tanınmış alimlər apardıqları müşahidə və tədqiqatlar nəticəsində kainatı yaradanın Allah olduğunu və hər şeyin Allah`ın hökmü altında olduğunu bildiriblər. Habelə, elmin əsas prinsipləri inanclı şəxslər tərəfindən irəli sürülmüş və müasir elmin meydana gəlməsində mühüm rolu olmuşdur.

Elmlə məşğul olan, yeni kəşflər edən bir elm adamı, əslində, Allah`ın yaratdığı sənəti dərindən tədqiq edən, təfərrüatları tutmağa çalışan insandır. Bu səbəbdən də dinlə elm ayrılmaz bütündür və elm adamı Allah`ın sonsuz gücünü, sənətini, bənzərsiz yaratmasını üzə çıxaran şəxsdir. Ona görə, elm adamları Allah`ın varlığını tez dərk edən insanlardır.

Bu məqalədə keçmişdən müasir dövrə qədər müasir elmin əsasını qoyan və inkişaf etdirən inanclı elm adamlarından və bu şəxslərin elm sahəsindəki xidmətlərindən bəhs edəcəyik. Həmin elm adamlarının hamısı kainatı və canlı sistemləri Allah`ın yaratdığına inanıblar. Allah bir çox ayə ilə yaradılmışlar üzərində düşünməyin, Allah`dan layiqincə qorxmağın, Onun böyüklüyünü, ucalığını dərk etməyin bir yolunun elm olduğunu xəbər verir. Mövzu ilə bağlı ayələrdən biri belədir:

**Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun dəlillərindəndir. Həqiqətən, bunda alimlər üçün ibrətamiz dəlillər vardır! (Rum surəsi, 22)**

Ən böyük elm adamı kimi tanınan İsaak Nyutonun kainata baxışı aşağıdakı sözlərində çox açıq ifadə olunur:

*"Günəş sisteminin, planetlərin və kometlərin möcüzəvi sistemləri ancaq ağıllı və güclü varlığın qüdrəti ilə mövcud ola bilər. Bu varlıq təkcə dünyanın ruhunu deyil, hər şeyi idarə edir. O, Allah`dır". (Newton, Principia, 2. baskı; J. De Vries, Essentials of Physical Science, B. Eerdmans Pub.Co., Grand Rapids, SD, 1958, s.15)*

Eyni şəkildə, məşhur elm adamı Keplerin də fəaliyyətlərinə dini inancı istiqamət verirdi. Fizika və kosmik fon radiasiyası sahəsində apardığı fəaliyyətlərinə görə, 1978-ci ildə fizika üzrə Nobel mükafatı alan Arno Penzias, İohan Kepler haqqında belə demişdir:

Bir mərkəz ətrafında fırlanma fikri inanclı biri olan Keplerə qədər gedib çıxır. Kepler müqəddəs Kitaba inanan bir dindar idi. Allah`a inanırdı... O gündən bəri əsrlər boyu böyük mübarizə gedib. Ümidlər hələ də elm adamlarınadır. Kepler isə bu ümidi inancından əldə etmişdi.



## Qalileo Qaliley (1564-1642)

Qalileo Qaliley teleskopla kosmosa baxan ilk şəxsdir. Qaliley həm Yerin kürə formasında olduğunu demiş, həm də Aydakı qaranlıq əraziləri, kraterləri və təpələri aşkar edən ilk şəxs olmuşdur. Elmə xidmətləri ilə tarixdə mühüm yeri olan Qaliley duyğu orqanlarını, nitq qabiliyyətini və zəkanı insanlara Allah`ın verdiyinə və bu qabiliyyətlərdən doğru istifadə edilməsinə inanırdı. Təbiətin bir Yaradıcı tərəfindən dizayn olunduğunu açıq-aydın müdafiə edirdi. “Şübhəsiz ki, təbiət Allah`ın heç bezmədən oxunmalı digər kitabıdır”, -deyən Qaliley Allah`ın kitabları ilə yaratdıqları arasında heç bir uyğunsuzluq olmadığını, çünki hər birini Allah`ın yaratdığını deyirdi.

## İsaak Nyuton (1642-1727)

Ən böyük elm adamlarından biri olan Nyuton həm riyaziyyatçı, həm də fizik idi. Nyutonun elm sahəsindəki xidmətləri arasında ən böyüyü ümumdünya cazibə qanunun kəşfidir. Nyuton qüvvə və sürət arasındakı mükəmməl əlaqəni kütlə məfhumu ilə əlaqələndirmiş, təsir və əks-təsir prinsipini kəşf etmiş, heç bir qüvvə təsir etməyən hərəkətli cisimlərin sürətinin dəyişməməsi tezisini irəli sürmüşdür. Nyutonun hərəkət qanunları 4 əsrdir ən sadə mühəndislik hesablamalarından ən mürəkkəb texnoloji layihələrə qədər hər sahədə tətbiq olunur. Nyutonun mexanika və optika sahəsində də mühüm kəşfləri olub. İşığın 7 rəngini kəşf edən Nyuton optika adlanan yeni bir elm sahəsinin əsasını qoymuşdur.

Nyuton elm sahəsində yeni cığır açan kəşfləri ilə yanaşı, ateizmi inkar edən, yaradılışı dəstəkləyən ciddi əsərlər yazmış, “yaradılış yeganə elmi açıqlamadır” fikrini müdafiə etmişdir. Nyuton mexaniki kainatın, fasiləsiz işləyən bu nəhəng “saat”ın ancaq güclü və üstün bir ağıl sahibi olan Yaradıcının əsəri olduğuna inanırdı.

Nyuton elmi tədqiqatlar apararkən şövqünün mənbəyini “Principia Mathematica” adlı əsərində bu sözlərlə ifadə edir:

*“Biz Allah`a möhtac, aciz qullar olaraq öz ağlımız çərçivəsində Allah`ın ağlının böyüklüyünü və ucalığını görməli və Ona təslim olmalıyıq.*

*Allah sonsuz və mütləqdir, gücü hüdudsuzdur və hər şeydən xəbərdardır, sonsuzluqdan bəri mövcuddur, hər şeyi idarə edir, edilən və ediləcək hər şeyi bilir. O, sonsuz və hüdudsuzdur. ... Əbədidir və vardır. Varlığı əbədidir, hər yerdə mövcuddur, həmişə və hər yerdə mövcud olması ilə O, bütün zamanı və zaman intervallarını yaradır”.(Sir Isaac Newton, Mathematical Principles of Natural Philosophy. Latinceden Çeviri Andrew Motte, Revize Florian Cajore, Great Books of the Western World 34, Robert Maynard Hutchins, Baş editör, William Benton, Chicago, 1952:273-74)*

## Corc Lemetr (1894-1966)

Corc Lemetr kainatın yaradılışını ifadə edən Biq Bənq





(Böyük Partlayış) nəzəriyyəsini irəli sürmüşdür. Lemetr kainatın başlanğıc və sonunun olduğunu, bunun isə bir çox insanın Allah`a inanmasında mühüm rol oynadığını demişdir. Eyni zamanda, din adamı olan Lemetr dinin və elmin bəşəriyyəti eyni həqiqətlərə aparacağına inanırdı.

## Verner fon Braun (1912-1977)

Verner fon Braun dünya səviyyəsində tanınan ən məşhur kosmoloqlardan biridir. Verner fon Braun İkinci Dünya müharibəsi zamanı məşhur V-2 raketlərini icad edərək alman raket mühəndisliyinə öndərlik etmişdir.

NASA-nın direktoru olan dr. Braun, eyni zamanda, güclü inanca malik dindar elm adamı idi. Yaradılış və təbiətdəki dizayn haqqında belə demişdi:

*"İnsan əli ilə kosmosda uçmaq heyrətamiz müvəffəqiyyətdir, ancaq kosmos qapılarının çox az qismini insanlara açır. Bu dəlikdən kosmosun geniş sirlərinə baxmaq Yaradıcıya olan qəti inancımızı təsdiqləyir. Kainatı yaradan üstün bir Ağılı tanımayan bir elm adamını və inkişaf edən elmi inkar edən bir din adamını anlamaqda çətinlik çəkirəm".(Henry M. Morris, Men of Science Men of God, Master Books, 1992, s. 85)*

Verner fon Braun 1974-cü il may ayında dərc olunan bir məqaləsində belə deyirdi:

*"İnsan dizayn və məqsəd olmadan kainatın qanunu və nizamının öhdəsinə buraxılmaz. Kainatın və onun içindəki hər şeyin təəccüblü cəhətlərini daha yaxşı anladıqca məhz bu məqsədlə yaradılan dizaynda çoxlu sayda heyrətləndirici səbəb tapdıq... Yeganə nəticəyə inanmaqda çətinlik çəkməklə - yəni kainatdakı hər şeyin təsadüfən əmələ gəldiyinə inanmaqda çətinlik çəkməklə - elmin tərəfsizliyi zədələnir... Təsadüfən meydana gələn hansı proses bir insanın beynini və ya insan gözünün sistemini əmələ gətirə bilər?.."(Dennis R. Petersen, Unlocking the Mysteries of Creation, Creation Resource Foundation: El Dorado, California, 1990, s. 63)*

## Albert Eynşteyn (1879-1955)

XX əsrin ən böyük elm adamı olan Albert Eynşteyn, eyni zamanda, Allah inancı ilə tanınır. Dinsiz elm olmadığını deyən Eynşteynin din və elmlə bağlı bir sözü belədir:

*"Dərin imana malik olmayan həqiqi elm adamı düşünə bilmirəm. Bunu belə ifadə etmək olar: dinsiz elmə inanmaq qeyri-mümkündür".(Einstein, Science, Philosophy and Religion, A Symposium, Conference on Science yayını, Philosophy and Religion in Their Relation to the Democratic Way of Life, Inc., New York, 1941)*

Eynşteyn kainatın təsadüfən əmələ gəlməyəcək qədər mükəmməl nizama malik olduğuna və kainatın üstün ağıl sahibi olan Yaradıcı tərəfindən yaradıldığına inanırdı.

Əsərlərində Allah`a olan inancından tez-tez bəhs edən Eynşteyn üçün kainatdakı təbii nizamın mükəmməlliyi böyük əhəmiyyət kəsb edirdi. "Dinsiz elm topaldır" sözləri ilə Eynşteyn dinlə elmin ayrılmaz bir bütün olduğunu ifadə etmişdir.

Eynşteyn təbiəti tədqiq edən hər kəsin daxilən dinə hörmət etdiyini bildirmiş və belə demişdir:

*"Elmlə ciddi şəkildə məşğul olan hər kəs təbii qanunlarda bir ruhun, insanlardan daha üstün bir ruhun olduğuna inanır. Bu səbəbdən, elmlə məşğul olmaq insanı dinə aparır".(Letter to a child who asked if scientists pray, January 24, 1936; Einstein Archive 42-601)*

Eynşteynin dinə baxışını aşağıdakı sözlərində də görmək mümkündür:

*"Din duyğusu nə vaxt itsə, elm ilhamı olmayan təcrübəçiliyə çevrilər".(Letter to Maurice Solovine,1 Ocak, 1951; Einstein Archive 21-174, 80-871, Solovine'de yayınlandı, s. 119)*

## Dövrümüzün iman gətirmiş elm adamları

### Maykl Bihi (Michael J. Behe)

Kainatın və bütün canlıların ağıllı dizaynın nəticəsi olduğunu deyən məşhur elm adamlarından biri də Maykl Behedir. Behe Pensilvaniyada Lehay Universitetində biologiya professorudur. "The New York Times" və "Boston Review" kimi məşhur jurnallarda bir çox məqaləsi dərc olunan Behe "Darvinin qara qutusu" (Darwin's Black Box) adlı kitabın müəllifidir. Təkamül nəzəriyyəsinin bioloji cəhətdən qəbuledilməz nəzəriyyə olduğunu sübut edən bu kitab beynəlxalq səviyyədə 80 dəfədən çox nəşr olunub.

Behe "reduksiya edilməz komplekslik" məfhumu ilə təkamül nəzəriyyəsinin qeyri-mümkün olduğunu sübut edir. Bu fikrə əsasən, canlı orqanizmlərindəki bir çox orqan müxtəlif hissələrin birlikdə və uyğunluq içində işləməsi ilə funksiyasını yerinə yetirir. Əgər hissələrdən biri funksiyasını itirsə, bu, bütün orqanizmə təsir edər və canlı funksiyalarını itirər. Bu səbəbdən, canlıların təsadüfən və ya mərhələli şəkildə əmələ gəlməsi mümkün deyil.

Maykl Bihi "Darvinin qara qutusu" kitabında belə deyir:

*"Bunlar təbii qanunlar tərəfindən, təsadüflər nəicəsində və ya müəyyən ehtiyaca görə dizayn olunmayıb, əslində, bunlar əvvəlcədən planlanıb. Dizayn edən isə sistemlərin ən son vəziyyətinin necə olacağını yaxşı bilir. Bu səbəbdən, sistemləri əmələ gəlməsi də addım-addım planlanmışdır. Yer üzündəki həyat da ən sadəsindən ən mürəkkəb hissələrinə qədər bu ağıllı dizaynın nəticəsidir. Ağıllı dizayn nəticəsi, əslində, bütün həqiqətini öz içində saxlayır. Biokimyəvi sistemlərin ağıllı dizaynerin əsəri olduğunu anlamaq üçün yeni bir prinsipə əsaslanan məntiq və ya elm lazım deyil. Son qırx il ərzində biokimya sahəsində aparılan tədqiqatlar bu həqiqəti görmək üçün kifayətdir və nəticələr də gündəlik həyatımızda rast gəldiyimiz ünsürlərdir". (Michael J.Behe, Darwin's Black Box, s.196)*

### Dr. Alan Sendic (Dr. Allan Sandage)

Dövrümüzün tanınmış astronomu dr. Alan Sendic sonradan dini qəbul edən elm adamıdır. 1998-ci ildə üz qabığı mövzusu "Elm Allah`ı tapır" olan "Newsweek" jurnalına verdiyi müsahibədə Sendic dini qəbul etməsini belə açıqlayırdı:

*"Məni bu nəticəyə aparan səbəb dünyanın elmlə anlaşılmayacaq qədər mürəkkəb olması idi. Həyatın sirrini ancaq imanla anlamaq mümkündür".(Newsweek, 27 Iyul 1998, s.46)*

### Filip Conson (Philip Johnson)

Çikaqo Universitetində hüquq professoru olan Conson təkamül nəzəriyyəsinin ideoloji əsasını təşkil edən bir çox tədqiqat aparmışdır. Conson bu mövzu ilə əlaqədar "Darwin on Trial", "Reason in the Balance", "Objection Sustained" adlı kitabları başda olmaqla, bir çox məqalənin müəllifidir. Təkamül nəzəriyyəsinə qarşı apardığı böyük mübarizəsi ilə tanınan Conson, eyni zamanda, Allah`a iman gətirmiş elm adamıdır. Consonun Allah inancını ifadə etdiyi sözlərindən bəziləri aşağıdakılardır:

*"Dindar biri olaraq Allah`ın varlığına və yaradıcılığına inanıram".*

*"... Materialist təkamülə daha güclü meydan oxumaq istəyirəm. Gəlin Yaradıcının ətrafında birləşək".(Tim Stafford, The Making of a Revolution, Christianity Today, Cilt 41, No. 14, 8 Aralık 1997.)*





# ORQANİZMİMİZ DOSTLARINI NECƏ TANIYIR?

Orqanizmimizə daxil olub özünü çoxaltmaq istəyən bakteriya və viruslar ilə orqanizmimizi bu düşmənlərdən qoruyan immun hüceyrələri arasında hər gün heç fərqində olmadığımız mübarizə gedir.

Ancaq immun sistemi hüceyrələri yad orqanizmlərə qarşı dərhal hərəkətə keçdiyi halda, necə olur ki, orqanizm üçün faydalı olan bakteriyaları tanıyıb onlarla mübarizə aparmırlar?

Bədənimizi qoruyan əsgərlərin faydalı bakteriyalara qarşı mübarizə aparmasının qarşısını alan nədir?

İmmun sistemi hüceyrələri eynilə intizamlı əsgərlər kimi bədənə zərər verən düşmənlərin keçməsinə icazə vermirlər. Döyüş sahəsinə əvvəlcə düşmənləri udaraq zərərsizləşdirən əsgərlər (faqositlər) gəlir. Ancaq bəzən bu əsgərlərin gücü döyüşə çatmır. Onda digər əsgərlər (makrofaqlar) gəlir. Onların hərəkətə keçməsi hədəf bölgədə həyəcan vəziyyətinin əmələ gəlməsinə səbəb olur və başqa əsgər ordusunu da (köməkçi T hüceyrələri) döyüş sahəsinə çağırırlar. Ancaq bu mübarizədə möcüzə baş verir.

Bədən zərərli mikroorqanizmlərlə mübarizə apardığı halda, bəzi orqanlarda milyonlarla bakteriyanın yaşamasına icazə verir. Məsələn, ağızda və bağırsaqlarda 80 növ mikroorqanizm yaşayır. Tədqiqatlar bədənimizi daima sağlam saxlayan 200-ə yaxın mikroorqanizm olduğunu göstərir. İmmun sistemimizin bu canlılara hücum etməməsinin səbəbi isə onların həyatımız üçün faydalı olmasıdır.

## İmmun sisteminin tolerantlığı

T hüceyrələri orqanizmimizin döyüşən leykositləridir. Orqanizmimizə zərərli olan hər şeylə döyüşürlər və zərərli bakteriyaları, molekulları bədənimizdən təmizləyirlər.

Təmizlik zamanı bədənin hüceyrələrinə və bədənə faydalı bakteriyalara zərər vermirlər. Çünki onları tanıyan xüsusi sistemləri var.

Hər hüceyrənin reseptor adlanan, onu tanıdan orqanoidi var. Döyüşçü T hüceyrələri bütün digər hüceyrələrdəki reseptorları tanıyaraq bədəndəki faydalı hüceyrələrə toxunmurlar. Tibdə immun sisteminin bu xüsusiyyəti “tolerantlıq” adlanır.

Elm adamlarının tolerantlıq adlandırdığı bu vəziyyət, əslində, böyük möcüzədir. Çünki immun sistemi minlərlə müxtəlif zülalı bir-birindən fərqləndirə bilir.

Əgər bir T hüceyrəsi bədən hüceyrəsi ilə rastlaşsa, hücum etmir və özünü zərərsizləşdirir.

Eyni şəkildə, bədəndə antigen xüsusiyyəti daşıyan, ancaq məhv edilməyəcək bir maddə varsa, bədən immun sistemi hüceyrələri hasil etmir və bu maddəyə hücum etmir.

Tədqiqatlarda orqanizmə zərər verəcək immun sistemi hüceyrəsinin öldürüldüyü və ya özünü məhv etdiyi məlum olmuşdur.

Bəs hüceyrələr bu qədər müxtəlif orqanizmləri bir-birindən fərqləndirən sistemi necə əldə ediblər?

## Bədənin öz hüceyrələrini necə tanıyırlar?

Bu cür şüur, bilik və ağıl tələb edən seçmə qabiliyyətini təkamül nəzəriyyəsində iddia edildiyi kimi, şüursuz atomların təşkil etdiyi hüceyrələrin təsadüfən əldə etməsi, əlbəttə, qeyri-mümkündür. Şübhəsiz ki, immun sistemi də **"və Rəbbini dinləyib boyun əyməyə hazır olacağı zaman" (İnşiqaq surəsi, 2)** ayəsi ilə bildirildiyi kimi, kainatdakı hər şey kimi öz yaradılışına uyğun olaraq uca Allah`ın ilhamı ilə hərəkət edir.

## İmmun sisteminin mədəaltı vəzdəki tolerantlığı

Mütəşəkkil işləyən immun sistemi çox möcüzəvi bir hadisəyə də səbəb olur.

Normal şərtlərdə mədəaltı vəz orqanizmə qapalı orqandır. Odur ki, leykositlər birbaşa mədəaltı vəz hüceyrələri ilə qarşılaşmırlar.

Əvəzində vasitəçi hüceyrələr leykositlərlə əlaqə qurur və mədəaltı vəzi tanıdırlar. Bunun üçün bu hüceyrələr üstlərinə mədəaltı vəzə bənzəyən maska taxırlar. Bunlara "budaqlı hüceyrələr" deyilir.

Mədəaltı vəzin budaqlı hüceyrələri səthlərinə dost bakteriyaların antigen xüsusiyyəti daşıyan reseptorlarını yerləşdirərək immun sistemini sakit vəziyyətdə saxlayırlar.

Döyüşçü T hüceyrələri də bu antigenləri tanıyaraq həyəcan vəziyyətinə keçməməyi və orqana hücum etməməyi öyrənirlər.

Buradan da məlum olduğu kimi, bir-birini tanıtmaq üçün müxtəlif metodlardan istifadə etmək, plan qurmaq, bu plan üzrə mütəşəkkil hərəkət etmək kimi xüsusiyyətlər immun sistemi hüceyrələrinə və bir orqana aid edilə bilməz. Hətta insanlar belə bu cür qüsursuz təşkilatlanaraq işlərini unutmadan, xətasız, qarışıqlıq olmadan yerinə yetirə bilməzlər.

Yeganə həqiqət bundan ibarətdir ki, bütün hüceyrələr, təbiətdəki böyük-kiçik hər şey sonsuz güc, elm və ağıl sahibi olan Allah tərəfindən yaradılıblar. Bu həqiqət bir ayədə belə bildirilir:

**... Hər şeyi O xəlq etmişdir. O, hər şeyi bilir. (Ənam surəsi, 101)**



## İmmun sisteminin bağırsaqlardakı tolerantlığı

İmmun sisteminin tolerantlıq etdiyi digər orqan bağırsaqlardır. Bədənimiz ümumilikdə bakteriyalara qarşı hərtərəfli müdafiə silahları ilə dolu olduğu halda, milyonlarla bakteriya bağırsaqlarımızda rahat yaşayır. Çünki yeyilən qidaların və içilən içkilərin həzm olunmasına nazik bağırsaqdakı bakteriyalar kömək edir. Bundan əlavə, bu bakteriyalar orqanizmə zərər verən başqa bakteriyaların çoxalmasının qarşısını alırlar. İmmun hüceyrələri orqanizmə faydalı olan bakteriyalarla müştərək hərəkət edirlər. Bağırsaqda immun sisteminin hər an hərəkətə keçməsinə böyük ehtimal olduğu halda, T hüceyrələri nazik bağırsaqdakı bakteriyalara əhəmiyyət vermirlər.

Bəs immun hüceyrələri bakteriyalara necə tolerantlıq edir?

## Hüceyrələrin elm dünyasını heyrətləndirən təlimi

"Nature Immunology" jurnalında dərc olunmuş bir tədqiqatda Şanon Terlinin (Shannon Turley) rəhbərlik etdiyi tədqiqat qrupu bağırsaqdakı immun sisteminin tolerantlıq mexanizminə malik olduğunu üzə çıxarmışdır.

Limfa düyünləri orqanizmi bürüyən döyüş qalaları kimidir. İmmun hüceyrəsi olan leykositlər də antigenləri limfa düyünlərinə çəkərək mübarizə aparırlar.

Lakin bağırsaqlardakı limfa düyünləri döyüş sahəsindən çox təlim mərkəzidir. Buradakı əsas hüceyrələr immun sistemimizin əsgərləri olan T hüceyrələrini dost bakteriyalarla yaxşı davranmaları üçün təlimləndirirlər.

Bədənin bu hissəsində məhz ehtiyac olan sistemin olması təsadüflərlə açıqlana bilməz. Sistemin mükəmməlliyini tədqiq etdikdə yaradıldığı açıq-aydın bəlli olur. Elm adamlarının bugünkü inkişaf etmiş texnoloji imkanlarla açıqlaya bilmədiyi təlim prosesi necə baş verir? Bu sahədə tədqiqat aparan Harvard Tibb Fakültəsinin patoloqlarından Şanon Terli təəccübünü belə ifadə edir:

"T hüceyrələri bağırsaq toxumasına ya məhəl qoymur, ya da tolerantlıq edirlər. Ancaq hüceyrələrin mikroblara qarşı həssas olan T hüceyrələrinə sağlam bağırsaq hüceyrələrinə hücum etməməyi necə öyrətdiyi hələ də məlum deyil".

Şüursuz hüceyrələrin bir-birinə bioloji funksiyanı öyrətmək üçün ağlı, şüuru və qabiliyyəti yoxdur. İnsanın qavraya bilmədiyi bir sistemin düşünmə və dərk etmə qabiliyyəti olmayan hüceyrənin içinə yerləşdirilməsinin, şübhəsiz ki, xüsusi mənası var. Bu, sonsuz elm sahibi Allah`ın bənzərsiz yaratmasıdır. Allah`ın üstün elminin hər şeyi əhatə etdiyi Quranda belə bildirilmişdir:

... Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, ucadır, uludur. (Bəqərə surəsi, 255)





### İmmun hüceyrələrinin tolerantlığı avtoimmun xəstəliklərin müalicəsində faydalı ola bilərmi?

Avtoimmun xəstəlik immun sisteminin bədənin öz hüceyrələrinə hücum edərək sağlam toxumaları öldürməsi nəticəsində meydana gəlir. Xəstəliyin kökündə normal bədən hüceyrələrinin yad orqanizm kimi qəbul edilməsi dayanır. İnsanda 40 müxtəlif avtoimmun xəstəliyi olur. Tədqiqatlar immun hüceyrələrinin təlimləndirilməsi ilə 1-ci tip şəkərli diabet və dağınıq skleroz kimi bir çox avtoimmun xəstəliyinin müalicə ediləcəyini göstərir. Ancaq elm adamları hələ də bilmir ki, ağlı və şüuru olmayan hüceyrələr bu təlim prosesini necə həyata keçirirlər.

### İmmun sistemi tam təchizatla yaradılmışdır

İmmun hüceyrələrinin tolerantlığı uca Allah`ın yaratmasındakı mükəmməlliyi vurğulayır. Uca Allah bütün kainatı qüsursuz yaratdığı kimi, kiçik hüceyrələrə də bir-birini anlayan, təlimləndirən, plan quran xüsusiyyətlər ilham edib. Kiçik quruluşları ilə özlərindən milyon dəfələrlə böyük olan insan bədənini xəstəlikdən qoruyan, ancaq insana faydalı orqanizmlərin yaşamasına imkan verən bu xüsusi varlıqlar uca Allah`ın üstün ağlının təcəlliləridir və Onun “Ol” əmri ilə bir anda yaradılıblar. Bir ayədə belə buyurulur:

**Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: “Ol!”– deyər, o da olar. (Bəqərə surəsi, 117)**

# Dünyəvi zövqlərin bitdiyi an: Ölüm



Dünya həyatına həvəslə bağlanan bütün insanların çox yaxşı bildiyi, ancaq daima qaçmağa çalışdığı mühüm bir həqiqət var. Hər insanın bir gün mütləq qarşılaşacağı ölüm qəti həqiqətdir və inkar edənlər üçün Allah`ın izni ilə sonsuz əzabın başlanğıcıdır. Ancaq bəzi insanlar həyatı boyu ölümü mümkün olduqca az düşünməyə, az xatırlamağa və hətta unutmağa çalışırlar. Ta ki, ölüm onlara gələnə qədər...

Ölüm hər insanın dünyada bir müddət yaşadıqdan sonra qarşılaşacağı labüd həqiqətdir. Ölümlə həyatını dünyəvi istəklər üzərində qurmuş bir insanın bu dünyaya verdiyi əməyi bir anda silinib yox olacaq, tamamilə mənasızlaşacaq. İllərlə sərf etdiyi əmək, topladığı sərvət, insanların arasında tariflənən bütün dəyərlər ölümlə əhəmiyyətini itirəcək.



İnsan dünyanın ən varlı, ən gözəl, ən hörmətli, ən tanınmış şəxsi olsa da, bir anda bütün maddi dəyərlərini itirəcək. Bədəni qısa müddətdə pis vəziyyətə düşəcək, sonra torpağın altında çürüyüb məhv olacaq. Axirətə inanmayan bir insan dünya həyatında illər boyu etdiyi səyləri  ancaq bu son üçündür. Həyatını həvəslə yaşamağa çalışmaq, bütün zövqləri dadmağa çalışmaq insanın qarşılaşacağı son üçün heç nəyi dəyişdirməyəcək. Ölüm bütün bu zövqləri qəti şəkildə yox edəcək.

Ən əsası, ölüm inkarçıların həvəslə bağlandığı dəyərin sona çatdığı, əvəzinə böyük peşmançılığın və çətin həyatın başladığı an olacaq. Allah bu insanların əbədiyyən davam edəcək əzabdan əvvəl ölüm anlarında da böyük əzab çəkəcəklərini Quranda bildirir:

**Bəs mələklər onların üzlərinə və arxalarına vura-vura canlarını alanda necə olacaq? (Muhəmməd surəsi, 27)**

**… Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb: “Canlarınızı çıxarın! Allah`a qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz cəzalandırılacaqsınız!” (– dediklərini) bircə görəydin. (Ənam surəsi, 93)**

## Ölümü unutmağın nəticəsi: peşmançılıq

Bütün ömrünü dünya həyatından daha çox faydalanmaq həvəsi ilə yaşayan insanlar ölümlə qarşılaşdıqda həyatı boyu vicdanlarını daima susdurmağa, düşünməməyə çalışdıqları ölümün nə qədər gerçək olduğunu anlayacaqlar. Dərhal Allah`a sığınıb xilas yolu tapmağa çalışacaqlar. Ancaq Allah`ın Quranda “Sənin Rəbbin və səf-səf (düzülmüş) mələklər gələcək və o gün Cəhənnəm gətiriləcək. O gün insan xatırlayacaqdır. Lakin (bu) xatırlamanın ona nə faydası? O: “Kaş (axirət) həyatım üçün əvvəlcədən hazırlıq görəydim!”–deyəcəkdir” (Fəcr surəsi, 22-24) ayələri ilə bildirdiyi kimi, artıq bu peşmançılığın insana faydası olmayacaq. Çünki Allah insana doğru yolu və rəhmətini görməsi üçün bir ömür qədər vaxt vermişdir. Allah Quranda ömürlərini qəflət içində keçirən insanların peşmançılığını belə bildirir:

**Onlar orada fəryad qoparıb yalvaracaqlar: “Ey Rəbbimiz! Bizi  çıxart ki,  etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək”. (Onlara deyiləcək:) “Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? Sizə qorxudub xəbərdar edən də gəlmişdi. Elə isə dadın (əzabı!) Zalımlara kömək edən olmaz”. (Fatir surəsi, 37)**

Allah onlara verilən müddəti əleyhlərində istifadə edən, ölümlə qarşılaşdıqda isə tövbə etməyə qərar verən insanların tələblərinin qəbul edilməyəcəyini bildirir. Bu səbəbdən, hər insan Allah`ın xatırlatdığı bu həqiqəti hələ vaxt var ikən düşünməli və geriyə dönüş olmayan an gəlməzdən əvvəl Allah`a təslim olmalıdır.





## Peşman olmazdan əvvəl

Qəflət içindəki insanın yeganə məqsədi dünya həyatının zövqlərindən istifadə etməkdirsə, nə qədər istəməsə də və düşünməməyə çalışsa da, bunlar bir gün mütləq bitəcək. Allah`ın insan üçün müəyyən etdiyi ömür sona çatdıqda insanın həvəslə bağlandığı bütün zövqləri torpağın altındakı çürümüş bədəni üçün bütün mənasını və dəyərini itirəcək. Bu düşüncədə olan insanlar açıq-aydın həqiqəti görüb dərk etməlidirlər. İnkar dünya həyatında bədbəxtliyə, ölüm anında peşmançılığa, axirətdə isə əzaba səbəb olur. İman isə insanlara dünya həyatının nemətlərindən yüksək zövq alacaq ruh dərinliyi və axirət həyatında əbədi zövqlər qazandırır.

İnsan inkarla iman arasındakı açıq-aydın fərqi görməli və inkarın qaranlığından xilas olmaq üçün imanın nuruna təslim olmalıdır. Ümid edirik ki, ölüm anındakı peşmançılıqdan əvvəl bütün insanlar Allah`ın rəhmətinə təslim olar və İslam əxlaqı ilə yaşayarlar. Çünki bunun əksi olarsa, Allah inkarçıların peşmançılıq çəkib axirətdə mütləq müsəlman olmağı arzulayacaqlarını bildirmişdir ki, axirətdə artıq bir daha bu istəklərini həyata keçirmək imkanları olmayacaq:

**Kafirlər mütləq müsəlman olmalarını arzulayacaqlar. Qoy onlar yeyib-**



**içsinlər, əylənsinlər və xam xəyallar onların başlarını qatsın. Tezliklə biləcəklər. (Hicr surəsi, 2-3)**

***Cənab Adnan Oktar:***
***Acizliyə və ölümə baxmayaraq, dünyaya həvəslə bağlanan insanlar***

Sual: Bu gün ateist birinə Allah`ın varlığını izah edərkən mənə dedi: "Bütün dünyada minlərlə ölüm hadisəsi var. Allah nə üçün bunlara icazə verir?" Nə deməli idim, hikməti nədir?

ADNAN OKTAR: *Bəs ölüm olmasa, xəstəlik olmasa, insanların nə hala düşəcəyini düşünürsənmi? Məsələn, insanın dişi ağrıyır, böyrəyi ağrıyır, qulağı, başı ağrıyır. Baş ağrısı üçün bir dərman içir, saçı üçün başqa dərman qəbul edir. Hətta kürəyi ağrıyır, elektromaqnit cihazlar taxır. Ayaqlarına dabanlıq qoyur. Hər yerində acizlik var, hər insan acizliklərlə doludur. Səhər oyanır, burnunu, ağzını, qulağını yuyur. Bu qədər acizliyə baxmayaraq, bəzi insanlar dəli kimi dünyaya bağlanırlar. Mal-dövlət, övladlar, evlənmək, övlad sahibi olmaq, varlı olmaq üçün necə çılğınlıqla dünyaya bağlanırlar. 70-80 yaşındakı insanlar belə...*

*Məhz bu imtahanın bir sirridir, möcüzədir. Allah`ın möcüzəsidir. Sən deyirsən ki, ölüm olmasın. Onda dünya fironlarla dolu olar, Allah qorusun. Ölümlərlə, acizliklə insanlar tənzimlənirlər. Buna baxmayaraq, insanların vəziyyətini görürsünüz. Bütün millət, əslində, üzü üstə yerə qapanıb səcdədən qalxmamalıdır, ancaq çoxlarının heç vecinə deyil. Məsələn, xanımlar görürəm. Boynunda yırtıq var, müalicə alır. Böyrəyində xəstəlik var, müalicə alır. Min cür dərman qəbul edir. Belində disk sürüşməsi olur, dizlərində kirəcləşmə, dişlərində infeksiya, buna baxmayaraq, yenə də dünyanı sevirlər. Sanki heç ölməyəcəkmiş kimi davranırlar. (Cənab Adnan Oktarın 25 aprel 2012-ci il tarixli A9 TV proqramından)*

## Ölümə hazır olmaq üçün dünyada hər an Quran əxlaqı ilə yaşamaq lazımdır

Möminin dünya həyatındakı gözəl əxlaqı axirətə, əbədi cənnətə və cəhənnəm həyatına tam yəqinliklə iman gətirməsi, bunu unutmaması və ölümü hər an yaxın görməsindən qaynaqlanır. Dünya həyatı boyu özünü hər an məhşər günündə toplanma yerində haqqında qərar verilməsini gözləyirmiş kimi görər. Sanki oraya getmiş, cənnətin gözəlliyini və cəhənnəmin qorxuncluğunu görüb dünyaya geri dönmüş kimi açıq şüurla və imanla axirət üçün hazırlıq görər. Beləliklə, hər hadisədə vicdanla davranar. Çünki bilir ki, ən kiçik laqeydlik, vicdansızlıq həmin gün peşmançılığa səbəb ola bilər.

**Ölümə hər an hazır olmaq üçün Quranda "Allah`dan bacardığınız qədər qorxun" (Təğabun surəsi, 16)** ayəsində bildirildiyi kimi, mömin var gücü ilə uca Allah`dan qorxub çəkinər və sonsuz məkanının cənnət olmasını arzulayar.

**"Hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə**





**qaytarılacaqsınız!"(Ənbiya surəsi, 35)** ayəsi ilə bildirildiyi kimi, insanın yoxdan yaranması, yəni doğulması kimi qocalıb ölməsi də Allah`ın insanlar üçün müəyyən etdiyi qədərin nəticəsidir. İnsan Allah`ın onun üçün müəyyən etdiyi qədər əsasında yaşayır, doğumu və ölümü kimi həyatı boyu etdiyi hər davranış tamamilə Allah`ın nəzarəti altındadır. Əməllərinə görə sorğu-sual olunacaq. Ona görə, hər insan Allah`ın ayədə bildirdiyi kimi, Quran əxlaqı ilə yaşamağa çalışmalıdır.

**De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! (Ənam surəsi, 162)**

## Ölümün yaxınlığını unutduran səbəblər

Hər məsələdə öz mənfəətini ən incə təfərrüatına qədər düşünən və hesablayan bəzi insanlar onlara çox yaxın olan ölüm haqqında laqeyddirlər. Allah bu vəziyyəti Quranda qəflət adlandırır. Rəbbimiz bir ayədə belə buyurur:

**İnsanların hesaba çəkiləcəkləri gün yaxınlaşdı. Amma onlar hələ də qəflət içində üz çevirirlər. (Ənbiya surəsi, 1)**

İnsanı qəflətə salıb ölümün ona nə qədər yaxın olduğunu unutduran başlıca səbəblər



bunlardır:

1. Təfəkkür və dərk etmə çatışmazlığı.

Bəzi insanlar hər hansı birinin ölümü ilə qarşılaşdıqda və ya ölüm haqqında söhbət açıldıqda "Allah kimsənin başına gətirməsin", "Allah uzaq etsin" və s. kimi sözlərlə özlərini ovundurur, mövzunu dərhal dəyişməyə çalışırlar. Halbuki, söhbət zamanı dərhal üstündən keçdikləri bu mövzu haqqında bir az dərin düşünsələr, həyata baxışları dəyişər. Ölüm haqqında düşünən kəs dünyəvi dəyərlərə möhkəm bağlanmaq əvəzinə, ölümlə başlayacaq sonsuz axirət həyatı üçün hazırlıq etməyin əhəmiyyətini anlayar.

2. Həyatın qarışıq və hərəkətli olması.

Həyat o qədər axıcı və hərəkətlidir ki, hadisələrə aludə olan insan xüsusi səy göstərməsə, gec-tez gələcək ölümü unuda bilər. Bu cür insanlar daima yeni dünyəvi planlar, mənfəətlər, hədəflər arxasınca qaçırlar, bunlara vaxt ayırdıqlarına görə ölümü düşünməyə fürsətləri olmur. Heç gözləmədikləri anda, hazırlıqsız, şaşqın vəziyyətdə ölümlə qarşılaşırlar. Ancaq artıq çox gecdir.

3. Doğum aldanması.

İnsanlara ölümü unutduran səbəblərdən biri də doğumların olmasıdır. Yer üzündə əhalinin daima artması, sanki doğumlar ölümləri bərpa edir, həyat bu cür tarazlanır kimi aldanmağa və bu da ölümə qarşı qəflətə səbəb olur. Halbuki, indidən etibarən doğum olmadığı bir dövr başlasa, daima azalan əhali ilə insan yaxında növbənin ona da çatacağını düşünərək ölümü bir an belə ağlından çıxarmaz.

4. Yaşlılığa ertələmə məntiqi.

Daha çox gənclərdə və orta yaşlı insanlarda rast gəlinən bu məntiqə görə bir çox insan 60-70 il yaşayacağını hesablayır və ömrünün ancaq son illərini dinə və ölümə hazırlıq üçün ayırmağı düşünür. Halbuki, bir saniyə sonra yaşayacağına zəmanət yoxdur, harada və nə vaxt öləcəyini bilməyən insanın belə uzunmüddətli, nəticəsiz hesablamalar aparması dərin qəflətdə olduğunu göstərir.

5. Dünyada sorğu-sual olunmamağın rahatlığı.

İşində daima səhv edən bir insan bu səhvini düzəltməsə, bir müddət sonra işdən qovulacağını bilir. Belə bir nəticə ilə qarşılaşmamaq üçün dərhal işinə daha çox diqqət ayırır, əlindən gələni edir. Ancaq dünya həyatında Quran əxlaqı ilə yaşayıb-yaşamadığı haqqında heç kimə cavab vermək məsuliyyəti olmadığına görə, bəzi insanlar laqeyd davranırlar. Bu cür insanlar yaşlılığa ertələmə məntiqində olduğu kimi, əməlisaleh müsəlman kimi yaşamağı da növbəti günə ertələyirlər. Məsələn, qəzəbini cilovlamalı olduqda "indi çox əsəbiyəm, qəzəblənməkdə haqlıyam, gələn dəfə qəzəbimi cilovlayaram" düşünməsi, yaxud ixlaslı əməllər etmək əvəzinə boş vaxt keçirən insanın "bu gün bir az dincəlim, sabah daha çox çalışaram" düşünməsi buna misaldır. Ancaq insanın xətalı olduğunu bildiyi halda, "necə olsa, dünyada bu barədə sorğu-sual olunmayacağam" şəklində yanılaraq laqeyd davranması ona ölümü unutduran qəflət halıdır.





# İslam dünyasında axan qanın səbəbi: İxtilaf

Dövrümüzdə İslam dünyasında axan qanın başlıca səbəblərindən biri müsəlmanlar arasındakı ixtilaflardır. Quranda müsəlmanların qardaş olduğu bildirilərkən, bəzi müsəlmanlar bu əxlaqdan uzaqlaşaraq bir-birini düşmən kimi görməyə başlayıblar. Əsl İslam ilə heç bir əlaqəsi olmayan bu yanlış inanca görə bir-birini öldürməyi və qardaş qanı tökməyi belə doğru hesab edirlər.

Hal-hazırda, müsəlmanlar arasındakı ixtilaf və qarşıdurmalar artmışdır. Digər tərəfdən, dünyanın bir çox yerində müsəlmanlara qarşı hücumlar da şiddətlənib. Yalnız Quran əxlaqına tabe olduqda hər iki problemi həll etmək mümkündür.

İslam ölkələri öz aralarında ixtilaflara son qoyub birləşdikdə dünyanın hər tərəfində müsəlmanlara edilən zülm və qırğın dərhal sona çatar. Bu birliyə üzv olan dövlətlər müstəqilliklərini və dövlət sərhədlərini qoruyaraq ortaq İslam mədəniyyəti altında birləşər və ortaq siyasət yeridə bilərlər. Ancaq bu gün davam edən məzhəblərarası qarşıdurmalara görə müsəlmanlar parçalanmış vəziyyətdədirlər və bir çox ölkə zülmü bir kənardan səssizcə izləyir.

Allah Quranda bütün müsəlmanlara birlik olmağı və dünyadakı zülmə qarşı elmi mübarizə aparmaq üçün birləşməyi əmr etmişdir. Bu, Allah`ın bütün müsəlmanlara fərz buyurduğu hökmdür, ancaq buna baxmayaraq, müsəlmanlar aralarındakı iğtişaşlar və ixtilaflara görə bu mühüm hökmü yerinə yetirmirlər.

Müsəlmanların müqəddəs kitabı Qurani-kərimdir və Allah halal-haramı Quranda bizə bildirmişdir. Allah ayələrdə müsəlmanların qardaş olduğunu və qardaşlar arasında ixtilaf və gərginlik olmasının Quranda

izah edilən müsəlman əxlaqına uyğun olmadığını bildirmişdir.

İslam əxlaqında bölünmə deyil, birlik olma əxlaqı var. Müsəlmanlara Quran əxlaqı ilə yaşayaraq ittifaq qurmaq nəsihət edilmişdir. Bölünmək, parçalanmaq, bir millətin özünü başqa millətdən üstün görməsi, müsəlmanların mənfəəti əvəzinə şəxsi mənfəətini güdməsi kimi anlayışlara İslam əxlaqında yer yoxdur.

Müxtəlif müsəlman xalqları arasındakı fərqlərə və ziddiyyətlərə ilişib qalmaq nə fərdlərə, nə də İslam aləminə fayda verər. Bütün İslam aləminin rifahı, əmin-amanlığı və xeyri üçün Quranda bildirilən birlik fərzdir. Allah Quranda, əks təqdirdə, müsəlmanların güclərini itirəcəklərini bildirmişdir:

**Allah və Onun Peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir! (Ənfal surəsi, 46)**

İslam dünyasındakı bəzi problemlərə görə çox vaxt Qərb təqsirləndirilir. Ancaq təqsir ixtilafdan heç cür xilas olmayan İslam dünyasındadır.

Allah`ın Quranda bildirdiyi şəkildə birlik qurmaq və Quranda bildirilən həqiqi İslam əxlaqı ilə yaşamaq İslam dünyasının başı üzərində dolaşan qara buludları dağıdar. Allah`ın bizə Quranda göstərdiyi həll yolu budur.

İslam dünyası ittifaq qurmadığı təqdirdə, bu torpaqlarda böyük fitnə və qarışıqlıq olacağından Allah bizi xəbərdar etmişdir:

**Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər. (Ənfal surəsi, 73)**

İslam dünyasının ən əsas hədəflərindən biri müxtəlif camaatlar, məzhəblər və icmalar arasında qarşıdurma yaratmadan ortaq zəmində birləşmək olmalıdır. Bu birlik vasitəsilə İslamın bərəkəti bütün bölgəyə yayılar. Belə güclü mənəvi birlik həm ölkələrin daxili problemlərinə müsbət həll yolu gətirər, həm də digər ölkələrin müsəlman ölkələrinin daxili işlərinə müdaxilə etməsinin qarşısını alar. Üstəlik, bu birlik ilə məzhəb və camaatlar arasındakı qarşıdurmalar, daxili münaqişələr səbəbindən getdikcə artan qarışıqlıq mühiti də sona çatacaq.

İslam dünyası birlik olub hərəkət etdikdə dirçələcəyini unutmamalıdır. İslam dünyasının hüquqları ancaq belə bir birlik mühitində qoruna bilər. Nəticədə, ayrı-seçkilik, ədalətsizlik və zülm aradan qalxar, siyasi, sosial və iqtisadi cəhətdən böyük güc yaranar.

Əlbəttə, İslam dünyasında müxtəlif adət-ənənələri və mədəniyyəti olan xalqlar var. Bu, çox normaldır. Ancaq bunlar ixtilafa səbəb deyil. Fərqli dəyərlərimizi birləşdirərək inanc birliyi və qardaşlıq mühiti formalaşdırmaq həm çox vacib, həm də asandır.

Müsəlmanlar İslam əxlaqına əsasən qardaş olduqlarını, irq, dil, millət və məzhəb kimi ünsürlərin bu həqiqəti dəyişdirməyəcəyini əsla unutmamalıdırlar. İslam dünyasındakı müxtəlifliklər müsəlmanlar arasında ixtilaf və çəkişmələrə çevrilməməli, əksinə, zənginlik kimi dəyərləndirilməlidir.

Müsəlmanların birlik olması dünyanın hər yerindəki müsəlmanların xilası üçün əsas ehtiyacdır. Bu birlik olmasa, İslam dünyası parçalanmadan xilas ola bilməz.







# HÖRÜMÇƏK TORUNDA ALLAH`IN İNCƏ SƏNƏTİ

- Həşəratlar nə üçün hörümçək torunu hiss etməyərək tora düşürlər?
- Hörümçək torunun elektrostatik xüsusiyyəti nədir?
- Hörümçək torunun elastik quruluşu necədir?
- Hörümçək ovunun növünə görə necə fərqli iplik hazırlayır?

Hörümçəklərin ən çox tanınan xüsusiyyəti tor qurmalarıdır. Ancaq istər torlarında, istərsə də torun ipliyində möcüzəvi xüsusiyyətlər var. Hörümçək toru ağırlığı daşıyan skelet ipliklər, bu ipliklərin üzərinə yerləşdirilmiş spiralvarı yapışqan ipliklər və torun iplərini bir-birinə birləşdirən rabitə iplərindən təşkil olunub. Spiralvarı yapışqan ipliklər skelet ipliklərə tam birləşmirlər. Beləliklə, tora düşən həşərat xilas olmağa çalışdıqca yapışqan tora bir az da yapışır. Həşəratın üstünə tamamilə yapışan iplik tədricən elastikliyini itirərək bərkiyir. Bu şəkildə həşərat sıxılır, hərəkətsiz qalır. Bundan sonra isə ov sanki qablaşdırılmış hazır qida kimi möhkəm skelet ipliklərin üstündə qalır, hörümçək gələrək ovuna son həmləni edir.

## Həşəratlar hörümçək toruna necə düşür?

Mikroskop altında hörümçək torunun telləri hamar görünür. Ancaq liflərin xarici qatını soyub bir məhlulla yumşaltdıqda hər bir telin süni liflərdən daha mürəkkəb quruluşda olduğu görülür. Lifin nüvəsi "nanofibril" adlanan ortaq mərkəzli kiçik ipliklərlə əhatə olunub. Bu nanofibrillər bəzi təbəqələrdə lifin oxu istiqamətində yerləşir, bəzi təbəqələrdə isə spiralvarı nərdivan kimi lifin ətrafını əhatə edirlər. Bu quruluş böyük miqdarda enerjinin sorulmasına kömək edir. Hörümçək torunun bu xüsusiyyəti həşəratların tutulmasına səbəb olur. Uzun illər davam edən elmi tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, elektrostatik xüsusiyyətinə görə, hörümçək torunda Yerin elektromaqnit sahəsi dəyişir və bu səbəbdən, toru hiss etməyən həşəratlar tora düşürlər. Allah`ın hörümçək torunda yaratdığı bu xüsusiyyətdən ilham alaraq mütəxəssislər ətraf mühit və hava çirklənməsi, təyyarə qəzalarına həll yolu tapmağa çalışırlar.

## Torun fiziki qanunları alt-üst edən tutma mexanizmi

Allah hörümçək torunun sistemini çox mürəkkəb yaradıb. Tədqiqatlara əsasən, uçan həşəratların üstü tozcuqlar, kir və hava yolu ilə daşınan maddələrlə örtülü olur. Məlum olduğu kimi, havada uçuşan hər şey elektriklə yüklüdür. Fiziki qanunlara görə, bir maddənin digər maddəyə yapışması üçün əks qütblər olmalıdır, ona görə də həşəratın tora yapışması üçün biri müsbət, digəri mənfi yüklü olmalıdır. Çünki eyni qütblər bir-birini itələyir. Bu təqdirdə, hörümçək toru həşəratı tuta bilməz və həşərat tora yapışmayıb qaçar. Məhz burada gözlənilməz hadisə baş verir. Hörümçək toru həşərata yapışır. Çünki hörümçək torunda fiziki qanunları alt-üst edən quruluş var.

Allah hörümçək torunun bütün səthini elektrostatik xüsusiyyətə malik maddə ilə örtmüşdür. Bu maddə torun həm uçan həşəratları, həm də həşəratların üstündə daşınan kir və tozcuqlar kimi zərrəcikləri tutmasına kömək edir. Ancaq bununla bitmir. Bu maddə hörümçək torunun üstündə sadəcə bir neçə millimetrlik sahədə Yerin elektromaqnit sahəsini pozur və beləcə, müsbət və ya mənfi yüklü olmasından asılı olmadan hər cismə yapışır.

## Həşəratların toru hiss etməsinin qarşısını alan elektrik dəyişikliyi

Elm adamlarını illərdir maraqlandıran digər məsələ də həşəratların həssas duyğu orqanları olmasına baxmayaraq, hörümçək torunu hiss etməmələridir.





## *Hörümçək toru haqqında möcüzəvi məlumatlar*

***• Təbii və ya süni liflərdən fərqli olaraq hörümçəyin ipəyi yumşalıb-bərkimək xüsusiyyətinə malikdir və bu səbəbdən, müxtəlif yükləri daşıya bilir.***

***• Tor istehsalında istifadə olunun maddələrlə müqayisədə hörümçək ipəyi qırılan budaqlara və ya güclü küləklərə qarşı 6 dəfə çox davamlıdır.***

***• Tora hər hansı ağırlıq tətbiq edildikdə ancaq bir teli qopur, hörümçək yenidən tor qurmaq əvəzinə qırılan teli bərpa edir.***

***Torun müxtəlif hissələrində bir teli 10% dartan elm adamları torun 10% möhkəmləndiyini müşahidə ediblər.***

***• Diametri 1000 mm-in 1000-də 1-indən də az olan bu iplik eyni qalınlıqdakı polad simdən 5 dəfə möhkəmdir. Poladdan 5 dəfə möhkəm olan ip kauçukdan 30% daha elastikdir və öz uzunluğunun 4 misli qədər gərilir.***

***• Bu ipin digər xüsusiyyəti çox yüngül olmasıdır. Yerin çevrəsi uzunluğunda hörümçək ipliyinin çəkisi 320 qram edir.***



Allah həşəratları elə yaradıb ki, ən kiçik elektrik dəyişikliyi olduqda bunu həssas lamisə orqanları ilə hiss edirlər. Bığcıqları bir növ elektron sensor kimi işləyir. Bığcığın ucundakı elektrik yükü həşəratın bədənindəki elektrik yükündən fərqlidir. Həşəratın bu qədər həssas sensorlarının olmasına baxmayaraq, toru görməyib yapışmasının səbəbi isə hörümçək torunun millimetrlik bir hissəsində Yerin elektromaqnit sahəsini pozmasıdır. Həşərat bu elektrik dəyişikliyini hiss edə bilmədiyinə görə tora yapışır.

## Torun zərbələri udma xüsusiyyəti

Hörümçək torunun təsirli tələ olması üçün təkcə yapışqan xüsusiyyətdə olması və ya müxtəlif ipliklərdən toxunması kifayət deyil. Məsələn, tor uçan həşəratları dayandırmağa da qabil olmalıdır. Tora ilişən həşəratı idarə olunan raketə bənzətsək, həşəratın hərəkətinin dayandırılması kifayət etməz. Çünki tora ilişən ov hörümçəyin dişləməsi üçün hərəkətsiz saxlanılmalıdır. Raketi tutub hərəkətsiz saxlamaq isə çox çətindir.

Toru təşkil edən ipliklər möhkəm olduqları kimi, eyni zamanda da elastikdir. Lakin torun elastikliyi müxtəlif hissələrdə fərqli ölçüdədir. Bu elastiklik aşağıdakı səbəblərlə əlaqədardır:

- Əgər ipliklərin gərilmə ölçüsü lazım olduğundan az olsaydı, tora toxunan həşəratı gərilmiş yaya toxunmuş kimi gəldiyi istiqamətə doğru geri atılardı.
- Əgər ipliklərin elastiklik payı lazım olduğundan çox olsaydı, həşəratı toru çox boşaldar, yapışqan ipliklər bir-birinə yapışar və tor pozulardı.
- İpliyin elastiklik ölçüsü hesablanarkən küləyin təsiri də nəzərə alınır. Beləliklə, əsən külək toru gərərsə, yenidən tor əvvəlki vəziyyətinə qayıdır.
- Elastiklik ölçüsü torun birləşdiyi yer üçün də vacibdir. Məsələn, tor ota birləşdirilibsə, torun elastikliyi otun hərəkətindən qaynaqlanan gərilmələri aradan qaldıracaq vəziyyətdə olmalıdır.
- Spiralvarı hörülən ov tutma iplikləri bir-birinə çox yaxındır. Azacıq yellənmə ipləri bir-birinə yapışdırar, ov tutulan zaman böyük oyuqlar əmələ gələr. Ona görə, elastiklik ölçüsü çox olan yapışqanlı ov tutma iplikləri elastiklik payı az olan quru ipliklərin üstündə yerləşdirilir. Beləliklə, torda əmələ gələcək potensial deliklərin qarşısı alınır.

Göründüyü kimi, torun hər xüsusiyyəti möcüzəvi quruluşdadır. Hər ehtimal düşünülüb. Bunları nəzərə aldıqda təkamül nəzəriyyəsinin iddiasının ağıldan kənar olduğu bir daha üzə çıxır. Təsadüfi dəyişikliklərlə tora zərbə uducu xüsusiyyətlər verməyin hörümçəyə öyrədilməsi, əlbəttə, mümkün deyil. Hörümçəklərə bu qabiliyyəti verən, şüurlu hərəkətlər etdirən Allah`dır:









*O, yaradan, yoxdan var edən, surət verən Allah`dır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa Onu təqdis edib şəninə tariflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir!*

*(Həşr surəsi, 24)*

# Axirət günündə sorğu-sual olunmazdan



Yer üzündə yaşayan təqribən 7 milyard insanın hər birinin həyat tərzi, mədəni səviyyəsi, düşüncə tərzi, xarakteri bir-birindən fərqlənir. Yaşayan milyardlarla insanın az hissəsi mühüm həqiqətin fərqinə vararaq həyatına davam edir. Bu həqiqət bir-bir hər kəsin Allah`ın hüzurunda sorğu-sual olunacağıdır…

İnsanın gün ərzində özünə tez-tez nəzarət etməsi, əməlləri haqqında düşünməsi nə üçün vacibdir?

Milliyyətindən, təhsilindən, maddi vəziyyətindən, vəzifəsindən asılı olmayaraq, hər insan vaxtı çatdıqda Allah`ın hüzuruna çıxacaq və dünyadakı həyatına görə sorğu-sual olunacaq. Allah Quran ayələri ilə insanlara məhşər günü haqqında məlumat vermiş və onlara hər kəsin əməllərinin həssas tərəzilərlə ölçüləcəyini bildirmişdir:

**Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. (Görülmüş iş) bir xardal dənəsi mislində olsa belə, onu gətirib (tərəziyə) qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. (Ənbiya surəsi, 47)**

Allah`ın bir çox ayədə bildirdiyi kimi, insanların haqq-hesab verəcəyi gün mütləq gələcək. Allah`ın yolundan azanlara isə məhşər gününü unutduqlarına görə şiddətli əzab toxunacağı Quranda xəbər verilmişdir. Bu səbəbdən, insanın uca Allah`ın hüzurunda sorğu-sual olunmazdan əvvəl dünyada ikən özünü haqq-hesaba çəkməsi ölüm anında peşmançılıqdan xilas olmasına kömək edə bilər.

## Möminlər pis haqq-hesabdan qorxduqlarına görə tez-tez özlərini haqq-hesaba çəkərlər

Bəşəriyyət tarixinə baxdıqda bir çox insanın bir gün sorğu-sual olunacağını unudaraq bu mühüm həqiqətdən xəbərsiz qəflətdə yaşadıqlarını görürük. Ancaq az sayda insan, yəni

# Əvvəl nəfsi sorğu-sual etmək

möminlər uca Allah`ın gücünü və qüdrətini təqdir edir, bir gün mütləq məhşər günü ilə qarşılaşacaqlarını bilərək və pis haqq-hesabdan qorxaraq yaşayırlar. Möminlərin bu qorxusu Quranda **"…Rəbbindən və pis haqq-hesabdan qorxurlar" (Rəd surəsi, 21)** şəklində bildirilir.

İman gətirənlərin Allah`dan qorxması və axirətdə haqq-hesaba çəkiləcəklərini düşünməsi onları hər an gözəl əxlaqlı olmağa təşviq edir. Eyni zamanda, Allah`ın rizasını qazanmaq üçün ciddi çalışmağa və daima nəfslərini haqq-hesaba çəkməyə vadar edir.

## Möminlər Allah`a qarşı səmimiyyətlərinə görə özlərini sorğu-sual edərlər

İman gətirən insan Allah`ın əmr etdiyi ibadətləri yerinə yetirə bilər. Əlindən gələni edər, gün ərzində bir çox işdə ciddi cəhd göstərib bütün gücünü sərf edə bilər. Ancaq uca Allah`a qarşı səmimiyyətində çatışmazlıq olması, Allah`a qarşı soyuq, uzaq, məsafəli olması (Allah`ı tənzih edirik) onu məhşər günündə məhv edə bilər. Çünki bu böyük çatışmazlıq insanın həm dünyada, həm də axirətdə heç gözləmədiyi vəziyyətlə qarşılaşmasına səbəb olan təhlükədir. Bir möminin dua etmək üçün Allah`a üz tutduğu, Allah`a yalvardığı, tövbə edib bağışlanma dilədiyi, Allah`dan nemət istədiyi, kimsənin bilmədiyi sirlərini, gizli hisslərini, istəklərini, sıxıntılarını Allah`a bildirdiyi anlar ən səmimi olduğu anlardır. Bir insan belə anlarda da içində soyuqluq, məsafə, səthilik, sünilik saxlayırsa, bununla bağlı özünü ciddi haqq-hesaba çəkməlidir. Çünki uca Allah Quranda çox çalışdıqları halda, əməlləri puç olanların vəziyyətini xatırladaraq insanları məhşər günü belə bir təhlükəyə qarşı xəbərdar etmişdir:

**(O gün) bir çox üzlər zəlil görkəm alacaq; zəhmət çəkib boş yerə yorulacaq; (Ğaşiyə surəsi, 2-3)**

**İman gətirənlər isə deyəcəklər: "Sizinlə bərabər olacaqlarına dair Allah`ın adı ilə möhkəm and içənlər bunlardırmı?" Onların əməlləri puça çıxdı, özləri də ziyana uğrayanlardan oldular. (Maidə surəsi, 53)**

## Mömin gün ərzində etdikləri ilə bağlı özünü daima haqq-hesaba çəkər

Gün ərzində etdiyimiz hər şeyə – düşüncələrimizə, söhbətlərimizə, üslubumuza, rəftarımıza, hadisələrə



münasibətimizə, qısası, bütün əməllərimizə görə sorğu-sual olunacağıq. Allah`ın hüzuruna çıxarıldıqda dünya həyatında keçirdiyimiz hər anımızdan məsul olacağıq.

İmam Rəbbani bu mövzu ilə bağlı belə xatırlatma etmişdir:

*“Allah sirlərinin qüdsiyyətini (müqəd-dəsliyini) artırsın; məşayihdən (şeyxlərdən) bir camaat özlərini haqq-hesaba çəkmək yolunu üstün tutmuşlar. Əməl dəftərlərini hər gecə yatmazdan əvvəl mütaliə edərlər. Hətta gündəlik sözlərini, hərəkətlərini, duruşlarını, davranışlarını belə gözdən keçirərlər. Təfsilatı ilə onların həqiqətini anlamağa çalışarlar. Qüsurları varsa, onları düzəltməyə çalışarlar. Seyyiatlarından (pis əməllərindən) belə tövbə, bağışlanma, iltica (sığınma), təzərrü (qüsurlarını bilib təkəbbürdən əl çəkib təvazökarlıqla yalvararaq) Əziz, Qaffar Allah`a yalvarıb xilas olmaq istəyərlər. Faydalı əməlləri üçün uca Allah`a həmd və şükür edərlər. Etdikləri yaxşı əməlləri belə uca Haqqın ehsan etdiyi müvəffəqiyyətlə əlaqələndirərlər”. (“Mektubat-ı Rabbani”, 310-cu məktub)*

Odur ki, İmam Rəbbaninin də tövsiyə etdiyi kimi, mömin peşman olacağı hərəkətləri etməmək üçün Allah dərgahındakı əsl haqq-hesabdan əvvəl daima öz nəfsini haqq-hesaba çəkər. Ancaq bu şəkildə Allah`ın hüzurunda peşman olmayacağı əxlaqa yiyələnər, məhşər günündə asanlıqla haqq-hesab verə bilər.

## Mömin Quranı tam həyata keçirib-keçirmədiyi ilə bağlı özünü haqq-hesaba çəkməlidir

Allah`a iman gətirən bir insan, əvvəla, onu yaradan Rəbbimizə qarşı vəzifələrinin nə olduğunu öyrənməlidir. Bunu öyrənmək üçün mənbə Quran və Peyğəmbərimizin (səv) sünnəsidir. Allah seçib-bəyəndiyi dininin hökmlərini, hədlərini Quranda bütün insanlara bildirmişdir. İnsanlar ancaq Allah`ın əmr etdiyi hökmləri tam yerinə yetirdikdə xilas ola bilərlər. Axirətdə bu hədləri şövqlə qoruyan, bütün həyatı boyu onu yaradan Allah`ın rizasını qazanmağa çalışan bir möminlə Allah`ın hədlərini qulaqardına vurub nəfsinin istəklərinə görə

yaşayan insanın sonu eyni olmaz.

Allah Quranda necə quldan razı qalacağını təfsilatı ilə açıq-aydın bildirmişdir. Ona görə, bir mömin ən böyük məsuliyyətinin Quranın hökmlərini həyatının hər anında yerinə yetirmək olduğunu bilir. Bu səbəbdən, ayələri bir-bir düşünüb bu ayələri həyatına tətbiq etməkdə qüsuru və ya tənbəlliyi varsa, özünü haqq-hesaba çəkməli, Quran əxlaqına tabe olmaqda ciddi cəhd göstərməlidir. Allah məhşər günü insanları Qurana tabe olub-olmadıqlarına görə haqq-hesaba çəkəcəyini bildirmişdir:

**Buna görə də sən özünə vəhy olunandan yapış. Həqiqətən, sən düz yoldasan! Şübhəsiz ki, o (Quran) sənin üçün və sənin qövmün üçün zikrdir. Siz (necə əməl etdiyiniz barədə) mütləq sorğu-sual olunacaqsınız! (Zuxruf surəsi, 43-44)**

## Allah insanın özünü haqq-hesaba çəkməsi üçün vicdanı yaratmışdır

İnsan yaşından və olduğu mühitdən asılı olmayaraq etdiyi hərəkətin, dediyi sözün, ağlından keçirdiyi fikrin doğru və ya yanlış olduğunu vicdanı ilə asanlıqla anlayır.

Vicdanını dinləyən hər insan xətalı cəhətlərini, etməli və etməməli hərəkətləri, hətta daha gözəl əxlaqa necə yiyələnməyi də görə bilər.

Əgər insan daima əxlaq və hərəkətlərini nəzərdən keçirib özünü sorğu-sual edərsə və vicdanının göstərdiyi yanlışlarını dərhal düzəltməyə çalışarsa, dünya və axirətdə Allah`ın razı qaldığı insan ola bilər. Ancaq özünü daima üstün görərək səhvlərini görməzsə, Allah qorusun, Allah dərgahında hesabını verə bil-məyəcəyi ağır yük altına girə bilər. Sonra geri dönüşü mümkün ol-mayan böyük peşmançılıq çək-məkdənsə, insan daima vicdanını yoxlamalı və daha gözəl, daha mükəmməl əxlaqa yiyələnmək üçün çalışmalıdır. Öz nəfsini daima haqq-hesaba çəkən, səhvlərinə görə bağışlanma diləyən və hər işində uca Allah`a üz tutan mömin axirətdə asan haqq-hesaba çəkilməyi və cənnət əhlindən olmağı ümid edə bilər. Allah bir ayədə belə buyurur:

**Mömin olub axirəti istəyən və onun uğrunda çalışanların zəhməti qəbul olunar. (İsra surəsi, 19)**

Mömin iman gətirdiyi anda həyatının hər anını Allah`ın rizasını qazanmaq üçün keçirməyə qərar vermişdir. Həmin andan etibarən maddi-mənəvi hər yöndən imani şövqlə ciddi cəhd edər. Ancaq möminin mühüm bir xüsusiyyəti də imanını əsla kafi hesab etməməsidir. Çünki insanın həyatının son anına qədər hər an imanını daha da dərinləşdirmə imkanı var. Bu səbəbdən, hər gün, hər saat, hər an bir daha niyyət etməli, imanını təzələməli, hər saniyə Allah`ın razı qaldığı əməllər etməyə qərar verməlidir. Bu barədə özünü tez-tez haqq-hesaba çəkməlidir.

# MOLEKULLARIN HİSS EDİLMƏYƏN HƏRƏKƏTİNDƏKİ İNCƏ TƏFƏRRÜATLAR

***Molekulların bədənimizə toxunduğunu nə üçün hiss etmirik?***

***Külək nə üçün üşüdür?***

***Molekullar daima hərəkətdə olduğu halda, nə üçün heç bir cisim parçalanmır?***

Otağınızda sakit oturursunuz. Ətrafınızda heç səs yoxdur. Ətrafda heç bir hərəkətin olmadığını düşünürsünüz. Halbuki, ətrafınızdakı hər şey, sizi əhatə edən hava belə dayanmadan hərəkət edir. Necə?

Siz otağınızda oturduğunuz kresloda, sakitcə əlinizdəki jurnalı oxuyarkən sizi







əhatə edən molekulların ən kiçik zərrəsi olan elektronlar saniyədə 1000 km sürətlə dövr edirlər. Bundan başqa, sizi əhatə edən, hətta sizi təşkil edən molekullar da fasiləsiz hərəkət edirlər. Boşluqda dolaşan molekulların sürəti tapançadan atılan güllənin sürətinə bərabərdir: saniyədə 1000 metrdən çox.

Havadakı milyardlarla molekul hər saniyə milyard dəfələrlə bir-biri ilə toqquşur və yenidən bir-biri ilə toqquşana qədər dövr etməyə davam edirlər. Odur ki, siz sakit, təkbaşına bir otaqda oturduğunuzu zənn edərkən, əslində, molekul bombardmanının içindəsiniz. Bəzən güclü küləyə çevrilən bu molekul bombardmanı ağacları və binaları yıxacaq qədər şiddətli olur.

Hərəkət edənlər təkcə havadakı molekullar deyil. Dərinizdəki, stolunuzdakı, əlinizdə tutduğunuz jurnaldakı molekullar da fasiləsiz hərəkət edirlər. Ən güclü qaldırıcı kranların belə çətinliklə yıxdığı daş divarın necə daima hərəkət halında olduğu sizə maraqlı gələ bilər. Bir divar həqiqətən hərəkətdədir, ancaq divarı təşkil edən molekullar bir-birinə çox yaxın düzüldüyü üçün sadəcə titrəşirlər. Fasiləsiz titrəyiş halındakı zərrəciklərdən təşkil olunmasına baxmayaraq, biz ətrafımızda daima bərk, möhkəm cisimlər görürük. Hərəkətdə olmalarına baxmayaraq, heç nə qopub parçalanmır.

## Molekullar arasındakı hərəkətlər mütənasibdir

Yuxarıda bəhs etdiyimiz titrəyiş bərk cisimlərdə müvazinəti təmin edən hərəkət formasıdır. Bundan əlavə, molekullar sabit şəkildə bir istiqamətdə hərəkət etmirlər. Əgər belə bir ehtimal baş versəydi, nəticə çox heyrətləndirici olardı. Molekulların bir istiqamətə

doğru toplu şəkildə hərəkət etməsi nəticəsində biz yemək yediyimiz stolun öz-özünə yana doğru hərəkət etdiyini görərdik. Bərk cismin bu gözlənilməz hərəkəti, əlbəttə, təəccüb doğurar və eyni zamanda, istifadəyə yararsız olardı. Ancaq biz heç vaxt belə vəziyyətlə qarşılaşmırıq. Çünki bərk cismi təşkil edən molekullar da Allah`dan bir nemət olaraq mütənasib titrəyiş hərəkətinə malikdirlər. Bu səbəbdən, bir istiqamətə doğru sabit hərəkət etmirlər və nizamsızlıq meydana gəlmir.

## Allah molekulların hərəkətini bizə hiss etdirməyəcək şəkildə yaratmışdır







Bədənimiz və bütün kainat molekullardan təşkil olunub. Bu molekullar sürətlə hərəkət edirlər. Məsələn, hal-hazırda olduğunuz otaqdakı molekulların sürəti saniyədə 500 metrə yaxındır. Ona görə üzümüzə, gözlərimizə, qısası, bədənimizə sürətlə fasiləsiz toxunan sıx molekul bombardmanı ilə qarşılaşırıq. Normal şərtlərdə bu sıx molekul bombardmanı bizə ağrı verməlidir. Çünki aparılan hesablamalar molekulların təkcə gözümüzə toxunması ilə 1 kq-lıq kütlə ağırlığına bərabər qüvvə tətbiq olunduğunu göstərir. Halbuki, biz heç nə hiss etmədən gündəlik həyatımıza asanlıqla davam edirik. Hətta ətrafımızda molekulların sürətli hərəkətindən heç xəbərimiz olmur. Çünki uca Allah bizi bu şərtlərə uyğun mükəmməl xüsusiyyətlərlə yaradıb.

Bir maddəni təşkil edən molekullar səbəbsiz yerə bir-birindən ayrılmazlar. Molekulları bir-birindən ayırmaq üçün müəyyən temperatur tələb olunur. Suyun buxarlanması üçün müəyyən edilmiş temperatur dünyadakı su miqdarının daima sabit qalmasını təmin edən su dövranının başlıca səbəbidir. Suyun bu xüsusiyyəti dünyada həyatın mövcud olması üçün Allah`ın yaratdığı bənzərsiz yaradılış nümunələrindən biridir.

## Molekulların temperaturun təsiri ilə müxtəlif hala keçməsi hərəkətli olmalarının və enerjilərinin nəticəsidir

Su molekulları bir-birinə çox yaxın olduqda bərk halda olur. İsinib maye halına keçdikdə molekullar daima hərəkət etdiyinə görə, bir-birlərinin üstündə sürüşürlər. Mayenin axıcı halda olmasının, yəni bizim mayeni "qarışdıra bilməyimizin" səbəbi budur. Suyun daha da isinib molekullarının bir-birlərindən ayrılması mərhələsi isə qaz halıdır. Buxara çevrilən su bir-birindən getdikcə uzaqlaşan molekullardan ibarət olur. Bir-birindən uzaqlaşan molekullar daima hərəkətdə olduqlarına görə, ətrafa asanlıqla yayılırlar. Mətbəxdə bişən yeməyin qoxusunu bu səbəbdən digər otaqda hiss edirsiniz.

Əllərinizi bir-birinə sürtdükdə əllərinizin həddindən artıq isinməsinin, taxta parçasının üstündə fırlatdığınız taxta çubuğun alovlanmasının səbəbi də molekulların hərəkətidir. Əllərinizi bir-birinə sürtdükdə sürtünmənin təsiri ilə molekullar daha sürətlə hərəkət etməyə başlayırlar. Əllərinizdəki istilik hissi bu hərəkətdən doğan enerjinin nəticəsidir.

## Molekullar fasiləsiz hərəkətdə olmalarına baxmayaraq, biz bunu çox vaxt hiss etmirik

Süfrənizin üstündəki millimetrik naxışlardakı molekullar da hərəkət edirlər, ancaq naxışlar pozulmur və ya bir-birinə qarışmır. Üzünüzü də molekullar təşkil edir və bu molekullar hərəkətdədir. Ancaq üzünüzün forması əsla pozulmur. Yer üzündəki hər şey, ən incə millimetrik ölçüdəki cisimlər belə hərəkətdədirlər. Lakin ətrafınızda buna dair ən kiçik dəlil yoxdur.

## Molekullar kortəbii hərəkət etmirlər

Mayelərdə bir-birinin üstündə sürüşən, qazlarda bir-birindən uzaqlaşan, bərk maddələrdə isə bir-birinə sıx yaxın olan molekullar əsla nizamı pozmurlar. Bir stəkanı təşkil edən molekullar səbəbsiz yerə dağılıb bir-birindən ayrılmırlar. Stəkanı molekullarından ayırmaq üçün müəyyən temperatur lazımdır. Bunun üçün lazım olan temperatur müəyyən



ölçüdədir. Məsələn, suyun molekullarına parçalanmasını təmin edən temperatur ölçüsü bəllidir. Ancaq həmin temperatur içində su qaynayan qazanı molekullarına parçalamaz. Bu səbəbdən, qazanın içində asanlıqla su qaynatmaq olur. Qazanın molekullarının bir-birindən uzaqlaşması üçün daha yüksək temperatur lazımdır.

## Molekulların bombardmanı şəklində hərəkətini hiss etdiyimiz hadisə: külək

Molekulların hərəkəti bəzən hiss edəcəyimiz ölçüdə olur. Bu, bəzən bizi üşüdəcək qədər yüngül, bəzən də ağacları, binaları yıxacaq qədər güclü külək ola bilər. Bəs küləyi necə hiss edirik? Küləyi iki səbəbə görə hiss edirik.

## Havanın üzərimizdəki itələmə qüvvəsi

Bədənimizin bir tərəfinə toxunan hava molekulları digər tərəfinə toxunanlara nisbətən daha güclü itələmə qüvvəsi tətbiq edir. Beləliklə, küləyin hərəkət etdiyi istiqamətə doğru itələnirik. Əgər havada külək yoxdursa, hər tərəfimizə eyni ölçüdə itələmə qüvvəsi tətbiq olunduğuna görə, itələmə qüvvəsi sıfıra bərabər olur. Bu təqdirdə, molekulların bədənimizə toxunmasının yeganə təsiri bədənimizə tətbiq etdiyi təzyiqdir ki, bunu da bədənimizdəki xüsusi sistem sayəsində hiss etmirik.





## Küləyin üşütməsi

Bədənimiz kiçik temperatur dəyişikliyini hiss etdiyinə görə, meh kimi yüngül hava axınlarını belə hiss edirik. Bədənimizin açıqda qalan hissəsinin (əlimiz, üzümüz) bir hissəsi digərlərindən çox üşüdüyü üçün hava axının haradan gəldiyini də anlayırıq. Bəs hava axınları nə üçün bizi üşüdür? Əgər hava axını yoxdursa, bədənimizi əhatə edən hava təbəqəsindəki molekullar çox az yer dəyişdirir və biz bunu hiss etmirik. Çünki bir saniyədə milyardlarla toqquşma olduğu halda, molekullar ancaq 1 sm yer dəyişdirirlər. Ancaq küləkli havada bədənimizi əhatə

edən hava təbəqəsini təşkil edən molekulların hamısı itələmə qüvvəsi ilə eyni istiqamətə doğru hərəkət edərək yerlərini daha soyuq havaya verirlər. Bədənə toxunan yeni təbəqə sürətlə isindiyinə görə temperatur itiririk.

Digər səbəb küləyin bədənimizi əhatə edən su buxarını uzaqlaşdırmasıdır. Buxarlanma ətrafdan temperatur udduğu üçün üşüməyə səbəb olur. Nəm və ya tərli bədənimizdə hava axınını daha çox hiss edirik, bədənimizin özünü soyutmaq üçün tərləməsi və isti şorbanı üfürərək soyutmağımızın səbəbi budur.



Ətrafınızdakı yüksək binalar, eviniz, bağınızdakı stol, yediyiniz meyvə,





içdiyiniz su... Bunların hər biri müxtəlif xüsusiyyətlərə malik fərqli maddələrdir. Təbiətdə mövcud olan təqribən 109 atomun müxtəlif miqdarda və formada birləşməsi yer üzündəki müxtəlifliyi meydana gətirmişdir. Bu 109 atom bir-birindən fərqli maddələri meydana gətirdiyi kimi qoxu, dad, rəng, bərklik, yumşaqlıq, axıcılıq, uçuculuq kimi xüsusiyyətləri də meydana gətirirlər. İndi düşünün. Siz 109 fərqli hissənin birləşməsi ilə müxtəlif xüsusiyyətlərə malik neçə fərqli maddə əmələ gətirə bilərsiniz? Əlbəttə, verəcəyiniz say məhduddur. Bu qədər məhdud xammal ilə bu qədər möhtəşəm müxtəliflik, şübhəsiz ki, Allah`ın uca sənətidir.

## Molekulların bədənimizə toxunduğunu nə üçün hiss etmirik?

Bunun cavabı bədənimizin yaradılış möcüzəsindədir. Çünki beynimizə ağrı impulslarını göndərən sinirlərimiz atmosfer təzyiqinin bədənimizdə meydana gətirdiyi dəyişikliyi, başqa sözlə, molekulların bədənimizə toxunması ilə əmələ gələn təzyiqi impulsa çevirmirlər. Sinir hüceyrələri ancaq böyük təzyiq olduqda impuls göndərirlər.

Bununla yanaşı, uca Allah sinir hüceyrələrini xarici amillərə qarşı uyğun yaratmışdır. Məsələn, qolumuza barmağımızla davamlı şəkildə bassaq, əmələ gələn ağrı hissinin getdikcə azaldığını və bir müddət sonra tamamilə itdiyini görərik. Şübhəsiz ki, bu, çox böyük nemətdir. Əks təqdirdə, paltarlarımızın meydana gətirdiyi toxunma hissi beynimizə çoxlu lazımsız impulslar göndərər və biz paltarlarımızdan daima narahat olardıq.

## Uca Allah hər şeyi bir ölçü ilə yaratmışdır

Elm adamlarının "təbii qanun" adlandırdığı bu həssas müvazinət olmasaydı, yer üzündəki heç nə, hətta bədənimizdəki zülalları və hüceyrələri təşkil edən molekullar da daxil olmaqla, kainatda heç bir şey sabit qalmazdı. Bundan əlavə, bu molekulların hərəkət sürətini və bizə böyük sürətlə toxunduğunu hiss etsəydik, həyat bizim üçün dözülməz olardı. Çünki həm ətrafımızı və bədənimizi əmələ gətirən molekulların dağılıb parçalanmasına mane olmağa, həm də toxunaraq bizə zərər vermələrinin qarşısını almağa çalışardıq. Ancaq uca Allah hər şeyi bir nizamla və qüsursuz uyğunluq içində yaratmışdır. Uca Allah`ın qüdrətinin göstəricisi bir ayədə belə bildirilir:

*... Şübhəsiz, Allah hər şeyi hesaba alandır. (Nisa surəsi, 86)*

# Hər an sakitləşdirici üslubdan istifadə etməyin əhəmiyyəti

Kainat ağlasığmaz dərəcədə böyükdür. O qədər böyükdür ki, insan bunu ifadə etmək üçün beynindəki "böyük" məfhumunu açıqlamağa belə acizdir. Ancaq kainat bu qədər ucsuz-bucaqsız olduğu halda, bir hikmətlədir ki, bizim ancaq bir Yer kürəmiz var. Hamımız bu Yer kürəsində yaşamalı və müəyyən şeyləri paylaşmalıyıq…

Təqribən 7 milyard insan hal-hazırda Yer kürəsini paylaşmağa çalışır və bu paylaşma bir çox problemə səbəb olur. Bəs nə üçün? Paylaşmaq bu qədər çətindirmi? Nəyi paylaşa bilmirlər? Yer kürəsi çox kiçikdir, yoxsa bəziləri çox şey istəyirlər?

Hər kəsə bu sualları versəniz, təfərrüata girdikdə o qədər mövzu ortaya çıxar ki, danışmaqla, yazmaqla bitirə bilmərik, ancaq bu minlərlə problemin, əslində, bir həlli var: sakitləşdirici üslubdan istifadə etmək…

Dünyada bütün fərqlərə baxmayaraq, ortaq həyat tərzi qura bilərik. Ziddiyyətlərdən dostluqlar formalaşdıra, təcrid etmədən, ayrı-seçkilik etmədən birlikdə yaşamağın yolunu tapa, nifrət etmədən, kin bəsləmədən, münaqişə etmədən, bir-birimizi əzib məğlub etməyə çalışmadan birlikdə yaşaya bilərik. Bu tamamilə mümkündür və ilk anda bəzilərinə çətin görünsə də, əslində, heç də göründüyü kimi çətin deyil. Çünki hər kəs bunun yolunu çox yaxşı bilir. Sadəcə bəziləri bu əxlaqın hər mühitə tətbiq oluna biləcəyini heç düşünməyib.

## Fərqli fikir və inanca malik insanlar gündəlik həyatda, əslində, həmişə birlikdə yaşayırlar

Normal şərtlər altında müxtəlif fikirlərə malik olsalar da, insanlar daima birlikdə yaşayırlar. Bu insanlar bir-biri ilə münaqişə etmədən, bir-birinə zərər vermədən çox gözəl yola gedirlər. Eyni hava ilə nəfəs alır, eyni küçələrdə gəzir, eyni dildə danışırlar. Eyni restoranlarda yemək yeyir, eyni istirahət zonalarında qalır, eyni ticarət mərkəzlərində gəzirlər. Ətrafda fərqli fikrə malik yüzlərlə insan onları narahat etmir. Küçələrdə hər cür görünüşə malik, hər inanca mənsub, hər fikirdən olan insan var və heç kimin gözü bir tip insan modeli axtarmır. Hətta bu müxtəliflik insana xoş gəlir.

Biz bir millət olaraq, əsasən, bu müxtəlifliyin içərisində gözəl əxlaqla yaşayırıq. Küçədə heç tanımadığımız bir insan qarşı tərəfə keçməyə çalışdıqda bir çoxumuz onun əlindən tutub yoldan keçiririk. Yolunu azmış birinə hər kəs işini qoyub kömək edir. Yeni işə başlayan birinə dəstək olub yol göstərmək, yaralı birini gördükdə dərhal təcili yardım çağırıb xəstəxanaya çatdırmaq, ehtiyac içində olan bir insan sədəqə istədikdə öz ehtiyacımız olsa belə, dərhal ona vermək millətimizin heç düşünmədən etdiyi doğru hərəkətlərdir.

Üstəlik, kömək edərkən insanların heç birinin hansı dindən və ya inancdan, hansı ideologiyadan, hansı siyasi partiyadan olduğunu da soruşmarıq. Heç sorğu-sual etmədən, dostcasına gözəl əxlaq göstəririk. Bütün dünyanın birlikdə, əmin-amanlıq içində yaşamasının yolu məhz bu əxlaqın yayılmasıdır.

## Nifrət və kin çətindir, münaqişənin qarşısını almaq isə asandır

Nifrət və kin asanlıqla formalaşan hisslər deyil. Münaqişə etmək, dalaşmaq, qütbləşmək üçün səy göstərilməsə, təşviq edilməsə, nifrət və kin formalaşmaz. Çünki normal həyatda insanlar başqaları ilə çox maraqlanmaz, fərqlərini düşünməz, öz işləri ilə məşğul olarlar. Yəhudi, xristian, müsəlman, buddist, ateist, kommunist və ya satanist olduğunu araşdırmaz, hətta bunlar ağlına belə gəlməz.

Bəs bir çox insan gündəlik həyatımızda fərqlilikləri problem etmədən yaşaya bilərkən, nə üçün məsələ siyasət olduqda və ya kompyuter və televiziya qarşısında ikən bir anda tamamilə başqa şəxsiyyətə çevrilirlər?

Əlbəttə, dostyana yaşamaq çox asandır. Eyni düşüncə tərzi davam etdirilə bilər. Sakit, sülh mühitində yaşamaq, ziddiyyətlərə deyil, birləşdirici ünsürlərə diqqət edib münaqişənin yolunu tamamilə




Qullarıma de ki,ən gözəl
sözləri danışsınlar.
Çünki şeytan onlarınarasına
ədavət sala bilər.
Həqiqətən, şeytan insanın
açıq-aydın düşmənidir.
(İsra surəsi, 53)



kəsmək daha asan və gözəldir.

## Hər fikir və inanca hörmətlə yanaşmaq Quranın əmridir

Əvvəla, heç kəs inanmadığı fikirləri qəbul etməyə, bəyənmədiyi insanları dəstəkləməyə məcbur deyil. Ancaq bir kəsin bir ideologiyanı dəstəkləməsi və ya tamamilə yanlış qəbul etməsi həmin insanla münaqişə etməyə səbəb deyil. Münaqişəyə, qəzəbə, nifrətə təşviq etməz. Əksinə, hörmət və nəzakət çərçivəsində mədəni hərəkət edə bilər.

Bir məsələ haqqında fərqli düşünsə belə, hər kəs bunu ifadə edə bilər, tənqid edə bilər, öz fikrinin doğruluğunu istədiyi kimi izah edə bilər. Fikrini müdafiə etmək üçün məqalələr, kitablar yaza bilər, maarifləndirici filmlər hazırlaya bilər, elmi dəlillərini ortaya qoya bilər. Ancaq bütün bunları mədəni səviyyədə, hörmət göstərərək, gözəl üslubla edər. Fikrini müdafiə edərkən qarşı tərəfi qəzəbləndirməyə çalışmaz.

Əgər hər iki tərəf eyni şeyi etsə, nə qədər fərqli düşüncəyə malik olsalar da, problem çıxmaz və gözəl dünya olar. Küçədə, televiziyada, internetdə nifrət sözlərinin olmadığı rahat mühit olar.

Allah Quranda bizə bu cür gözəl əxlaqın barışdırıcı metod olduğunu və mütləq gözəl nəticə verəcəyini bildirmişdir:

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. (Fussilət surəsi, 34)**

Allah istəsəydi, hər kəsi ortaq fikirdə yaradar və dünyada müxtəliflik olmazdı. Ancaq müxtəlif hikmətlərlə Allah bir dünyada yüzlərlə fikir, minlərlə fərqli insan modeli yaratmışdır.

Allah bütün bu müxtəlifliklər, fərqlər içərisində gözəl əxlaqla yaşamağımızı, bu fərqlərə baxmayaraq, yola getməyin və bu dünyada birlikdə yaşamağın yolunu tapmağımızı istəyir. Deməli, bu, mümkündür. Rəbbimiz ayəsində bu gözəl əxlaqi xüsusiyyəti belə bildirmişdir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır. (Hucurat surəsi, 13)**



## Sülh, əmin-amanlıq və gözəl mühit hər kəsin üzərində məsuliyyətdir

İnsanın üzərinə düşən məsuliyyət təkcə bir fərd kimi gözəl əxlaqla yaşamaq deyil. Hər insan dünyadakı fərq və müxtəlifliklər içərisində sülhü, əmin-amanlığı, yəni gözəl əxlaqı təsis etməklə məsuldur.

- *Əgər qəsdən münaqişə yaratmaq niyyətində olmasaq;*
- *Nifrətə, qəzəbə təşviq etməsək;*
- *"Siz" – "Biz" məntiqi ilə hərəkət etməsək, insanlara da bu düşüncə tərzini aşılamasaq;*
- *Orta yolu tapmaq üçün qarşımıza çıxan fürsətlərdən istifadə etsək;*
- *Həll yolları olduqda buna bilə-bilə mane olmasaq;*
- *Uzlaşma yolları var ikən qəsdən problemləri çıxılmaz vəziyyətə çevirməsək*

*Hər problem həll olunar. Gündəlik həyatımızda zidd olanlarla, fərqliliklərlə birlikdə necə asanlıqla yaşayır və dost olmağın yolunu tapırıqsa, deməli, fikir ayrılığı olduqda da bu insanlarla dost olmağın, birlikdə rahat yaşamağın yolunu tapmaq üçün gücümüz var.*







# NİZƏ ATARAQ OV OVLAYAN DƏNİZ İLBİZİ

Dəniz ilbizinin bir növü olan conus striatus nizə ataraq ov ovlayır. İlbiz sorma borusundan 1.5 mm-lik kiçik nizəsini ataraq ovu olan kloun balığını vurur. Balığın sinir sistemi iflic olaraq hərəkətsiz qalır, ilbiz balığı udur. Bir çox növü olan dəniz ilbizlərinin oxlu dəniz ilbizi kimi 15 sm uzunluğunda böyük növləri də var. Bu növdən olan ilbizin bədənində hər an istifadəyə hazır 50-yə yaxın nizəsi olur. Bu zəhərli nizələri bədənindən kənarda zəhər kisəsi adlanan hissədə saxlayır və atdığı hər nizənin əvəzinə yenisi əmələ gəlir.

Şübhəsiz ki, bu cür dəqiq işləyən ovlama metodlarını, bu metoddan istifadə etmək üçün lazım olan orqanları, atdıqları maddənin qarşı tərəfdə meydana gətirəcəyi təsiri okeanın dərinliklərində yaşayan dəniz anemonlarına və dəniz ilbizlərinə ilham edən onları və kainatdakı hər şeyi yaradan Allah`dır. Okeanlar Allah`ın sonsuz yaratma gücünü nümayiş etdirən nümunələrdən biridir. Uca Allah`ın hər yeri elmi ilə əhatə etdiyi bir Quran ayəsində belə bildirilir:

**Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru (şey) yoxdur ki, açıq-aydın kitabda olmasın. (Ənam surəsi, 59)**